Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

19
NOYABR
2019-cu il

№ 205 (4103)

Qiymәti
40 qәpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# PAŞİNYANIN QARABAĞ SİYASƏTİNƏ (POZUCULUĞUNA) QARŞI ERMƏNİSTANDA ÜSYAN BAŞLANIR

■ səh. 9 ■



■ səh. 2-3 ■

## Prezidentin Vasif Talıbova ilk sualı - Naxçıvanın təhlükəsizliyi üçün əlavə hansı işlər görülməlidir...

*Vasif Talıbov yerli büdcə gəlirlərinin artırılması üçün gərəkli işlərin görüləcəyini bildirdi*

Prezident Əliyevin "faşist erməni qəhrəmanına" qarşı çağırışları Ermənistanı bərk yaraladı... ■ səh. 3 ■

Dünyanın dini və siyasi liderlərini gələn il Bakıya toplayacaq böyük hədəf... ■ səh. 6 ■

Azərbaycanın Ermənistana "faşizmə rəğbət" zərbəsi öldürücü effekt verməyə başlayır... ■ səh. 8 ■

ABŞ və Türkiyənin S-400 savaşı sonda Azərbaycanın xeyrinə həll oluna bilər... ■ səh. 11 ■

Təbrizdə nələr baş verir... ■ səh. 11 ■

60-dan çox iri tədbir və nağdsız ödənişlərin faizi 74-dən 40-a düşəcək - Azərbaycan möcüzəsi... ■ səh. 12 ■

"Şahənşah" restoranının sahibini şantaj etməyə çalışan müştəri bəzi jurnalistləri də öz toruna sala bildi - mediadan jurnalistə etiraz... ■ səh. 13 ■

Satışda "Paşa yatırım" istiqrazları - Azərbaycan maliyyə bazarında yeni proses... ■ səh. 14 ■





«Facebook» rəhbərliyinin sərt qərarı Milli Şura radikallarının feyk izləyicilər rekordunu ifşa etdi... ■ səh. 5 ■



Ermənilərin yeni yuxusu - Adəmin, Həvvanın, Nuhun vətəni Ermənistan... ■ səh. 7 ■

Ermənipərəst ABŞ konqresmenləri Ermənistana yardım qanunu üçün lobbiçiliyə başladı... ■ səh. 7 ■

■ səh. 4 ■ Bakı Zirvəsinin iştirakçısı olmuş dünya din xadimləri öz ölkələrində Qarabağ həqiqətlərini yayan qüvvə kimi...



■ səh. 5 ■ Müsavat Partiyasının özünü buraxması üçün daha nə baş verməlidir - Almaniya hadisələrinin uzantıları...



■ səh. 6 ■ Bələdiyyə üzvlüyünə namizədlərin sayı son beş ildə 15 min nəfər azaldı - ciddi hadisə...



■ səh. 14 ■ Hadisə yerinə gecikən sığorta əməkdaşları - Bakıda tıxacları artıran əsas səbəblərdən biri...



■ səh. 15 ■ Kişi müəllimlərin azalmasından sonra kişi həkimlərin də say azalması başlayıb...



# Prezidentin Vasif Talıbova ilk sualı - Naxçıvanın təhlükəsizliyi üçün əlavə hansı işlər görülməlidir...

*Vasif Talıbov yerli büdcə gəlirlərinin artırılması üçün gərəkli işlərin görüləcəyini bildirdi*

**Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovu qəbul edib. Bakı-xeber.com-un xəbərinə görə, Naxçıvan Muxtar Respublikasının inkişafının daim diqqət mərkəzində olduğunu bildirən Prezident İlham Əliyev deyib:**



- Naxçıvan Muxtar Respublikasının inkişafı daim diqqət mərkəzindədir. Respublikada gedən abadlıq-quruculuq işləri məni çox sevindirir. Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır. Bu, çox sevindiricidir. Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir.

Çətin coğrafi vəziyyəti nəzərə alaraq, ilk növbədə, Naxçıvanda təhlükəsizlik tədbirləri diqqət mərkəzindədir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb, ordu quruculuğu sahəsində böyük inkişaf var. Bu gün Naxçıvan ordusu ən müasir silahlarla təchiz edilib, texnikanın alınması təşkil olunub və bu proses davam etdirilir. Hazırda düşmənlə sərhəddə vəziyyət necədir və hərbi potensialın möhkəmləndirilməsi üçün əlavə hansı işlər görülməlidir?

**Ali Məclisin Sədri Vasif Talıbov deyib:**

**- Çox sağ olun cənab Prezident.** Bütün bunlar hamısı Sizin ölkəmizə uğurlu rəhbərliyinizin, Ümummilli Liderimizin yolunu uğurla davam etdirməyinizin nəticəsidir. Bütün bunlara görə muxtar respublika sakinləri adından Sizə minnətdarlığımızı bildiririk. Bu günlər sərhədlərdə məhəlli münaqişələr baş verir, ancaq buna baxmayaraq, Sizin rəhbərliyinizlə, qayğınızla muxtar respublikada yerləşən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin birləşmə və hissələri uğurlu yol keçib, Əlahiddə Ümumqoşun Ordusu korpusdan Əlahiddə Ümumqoşun Ordusuna qədər yol keçibdir. Bu da Sizin qayğınızla yaradılıb. Alınmış silah-sursatla bu gün muxtar respublikanın ordusu da lazımınca təmin olunur. Hazırda muxtar respublikada yerləşən birləşmə və hissələrdə qəbul edilmiş planlara uyğun olaraq təlimlər və nəzəri işlər həyata keçirilir. Eyni zamanda, hazırda muxtar respublikanın əsgəri məişət komplekslərinin yaxşılaşdırılması sahəsində işlər gedir, hava hücumundan müdafiə sahəsində işlər həyata keçirilir. Bir sözlə, Sizin qayğınızla muxtar respublikanın müdafiəsi üçün orada yerləşən hərbi hissələr hər bir tapşırığı yerinə yetirməyə tam hazırdır.

**Prezident İlham Əliyev:** "O dağ postlarına təchizatın təşkili ilə bağlı işlər görülüb?"

**Vasif Talıbov:** Demək olar ki, hamısına yollar çəkilibdir. Bəzi postlarımız var ki, onların təminatı avqust-sentyabr aylarında həyata keçirilir. Bütün hamısı ilə ələqəmiz var, gələn ilin iyun ayına qədər təminat artıqlaması ilə həyata keçirilibdir və xidmətin aparılmasında heç bir problem yoxdur.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Digər vacib sahə energetikadır. Bu istiqamətdə də böyük işlər görülüb. Hazırda Naxçıvanda generasiya gücü 220 meqavata yaxındır və sevindirici hal ondan ibarətdir ki, bunun əksəriyyəti bərpaolunan enerji növləridir. Su və Günəş elektrik stansiyalarının tikintisi geniş vüsət almışdır. Hazırda uzun illər üzərində işlədiyimiz və İran İslam Respublikası ilə imzalanmış anlaşma nəticəsində reallaşan önəmli layihə icra edilir - 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyası tikilir. Soruşmaq istəyirəm, bu istiqamətdə hansı işlər görülüb və stansiyanın tikintisi ilə bağlı əlavə hansı addımlar atılmalıdır?

**Vasif Talıbov:** Sizin qayğınız və iştirakınızla 2005-ci il dekabrın 20-də muxtar respublikada İran İslam Respublikasından alınmış qazın açılışı həyata keçirildi, bu gün 90 minə yaxın abonent qazla təmin olunubdur. Elektrik enerjisi sahəsində də böyük işlər görülüb. Əgər 2003-cü ildə muxtar respublikada bir elektrik stansiyası var idisə, hazırda 9 elektrik stansiyası mövcuddur. Siz qeyd etdiyiniz kimi, bunun da 6-sı bərpaolunan enerji sistemləridir. Əgər 2003-cü ildə muxtar respublika 1 milyard kilovatsaata yaxın enerji idxal etmişdisə, 2018-ci ildə 35 milyon kilovatsaata yaxın ixrac edibdir. Buna görə bu sahədə də Sizin qayğınızla işlər davam etdirilir, problem yoxdur. Ordubad Su Elektrik Stansiyası ilə bağlı Araz çayının bizim əraziyə tərəf hissəsində bənd tikilibdir, qapılar qoyulubdur, kanalda işlər davam etdirilir. İran İslam Respublikası ilə danışıqlar aparılır ki, o tərəfdən də bəndin tikintisi ilə bağlı işlərə başlanılsın. Vəsait ayırıbsınız, heç bir problem yoxdur, işlər davam etdirilir.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Bu doğrudan da tarixi nailiyyətdir. Çünki Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas hissəsindən coğrafi baxımdan ayrılıb və belə olan halda enerji təminatı xüsusi əhəmiyyət kəsb edir. Bu, əslində, təhlükəsizlik məsələsidir və heç bir daxili enerji resursu olmayan Naxçıvan hazırda elektrik enerjisini ixrac edir. Bir neçə il bundan əvvəl bunu təsəvvür etmək belə mümkün deyildi, bu gün reallıqdır. Şadam ki, bərpaolunan enerjinin ümumi enerji balansındakı payı getdikcə artır və Ordubad Su Elektrik Stansiyasının istifadəyə verilməsi nəticəsində prinsip etibarilə Naxçıvan Muxtar Respublikası öz enerji təminatını 100 faiz bərpaolunan enerji hesabına qarşılayacaqdır.

Bir də ki, yolların tikintisinə də böyük vəsait ayrılmışdır və yollar keyfiyyətli tikilir. Mən özüm şəxsən bunun şahidi olmuşam. Naxçıvan-Şərur-Sədərək avtomobil yolu bir neçə ildir ki, istifadəyə verilib. Naxçıvan-Şahbuz yolu layihəsi tam icra edilib. Naxçıvan-Culfa yolu da icra edilib, hazırda Culfa-Ordubad yolunun tikintisi davam etdirilir.

*(Ardı 3-cü səh.)*

*(Əvvəli 2-ci səh.)*

Bu istiqamətdə hansı işlər görülüb və bu yolun nə vaxt istifadəyə verilməsi nəzərdə tutulur?

**Vasif Talıbov:** Çox sağ olun. Ayırdığınız vəsaitlə orada işlər başlanıbdır, yolun uzunluğu 50 kilometrdir. O vaxt layihəni təsdiq edən zaman verdiyiniz tapşırığa əsasən onun 11 kilometri 2 gedişli-2 gəlişli, qalan 40 kilometrə yaxını isə 1 gedişli-1 gəlişlidir. Artıq orada torpaq və bir qat asfaltın qoyulması işləri başa çatıbdır. Bu ilin sonuna kimi orada ikinci asfalt qatının qoyulması başa çatacaq. İcazənizlə, biz üçüncü qatı qışda deyil, may-iyun aylarında qoyaq.

**Prezident İlham Əliyev:** Gələn ilə?

**Vasif Talıbov:** Bəli, yol böyüsün, otursun, may-iyun aylarında tamamilə tamamlanacaqdır.

**Prezident İlham Əliyev:** Beləliklə, şəhərlərarası bütün yollar artıq ən yüksək standartlara cavab verəcək.

**Vasif Talıbov:** Bəli, birinci dərəcəli yollar demək olar ki, tam standartlara cavab verən səviyyədə qurulur.

**Prezident İlham Əliyev:** Kənd yolları da tikilir, bu istiqamətdə də vəsait ayrılmışdır və gələn ilin investisiya proqramında bu, nəzərə alınmalıdır.

**Vasif Talıbov:** Sağ olun. Ümumiyyətlə, 2003-2019-cu illər ərzində kənd yolları da daxil olmaqla, 2 min kilometrə yaxın ümumi yollar investisiya və büdcə vəsaiti hesabına qurulmuşdur.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Şərur Sənaye Məhəlləsinin yaradılması üçün bu il 5 milyon manat vəsait ayrılıb və bu sahədə hansı işlər görülür? Eyni zamanda, Naxçıvanda yeni xalça fabrikinin tikintisi də nəzərdə tutulur. Bu sahədə hansı işlər görülüb? Məruzə edin.

**Vasif Talıbov:** Çox sağ olun. Ayırdığınız vəsait hesabına Şərur Sənaye Məhəlləsində artıq layihə-planlama işlərinə başlanılıbdır, qısa müddət ərzində investorların cəlbi ilə bağlı təkliflər vermişik. Təklifləri gözləyirik ki, orada hansı sənaye müəssisələri qurulsun. Demək olar ki, bu ilin sonuna artıq orada ilk müəssisənin qurulması işlərinə başlanılacaqdır. İlk olaraq bitki yağları istehsalı müəssisəsinin qurulması nəzərdə tutulubdur. Ona görə ki, muxtar respublikamızda bu, yüz faiz idxal hesabına həyata keçirilir.

Xalça fabrikinin qurulması işləri başa çatdırılıbdır. İndi yun tədarükü sexinin qurulması işləri davam etdirilir. Artıq orada işçilər götürülübdür, yəni, sınaq işləri başlanılıbdır, xalçalar toxunur. Bir-iki ay müddətində orada işlər tamamilə başa çatdırılacaq.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Artıq bir neçə ildir ki, Naxçıvan özünü taxılla tam təmin edir və məhsuldarlıq da yaxşıdır. Kənd təsərrüfatının inkişafı üçün indi pivot suvarma qurğularının alınması məqsədilə vəsait ayrılmışdır. Eyni zamanda, bu ilin investisiya proqramında Süni Mayalanma Mərkəzinin tikintisi nəzərdə tutulur. Bunun ümumi dəyəri təqribən 7 milyon manatdır, onun böyük hissəsi bu il verilməli idi, vəsait verildi və bu sahədə hansı işlər görülüb?

**Vasif Talıbov:** Muxtar respublikada bu sahəyə də diqqətiniz sayəsində, cənab Prezident, deyə bilərəm ki, bu illər ərzində 4 min hektara yaxın ərazidə yeraltı suvarma şəbəkələri qurulmuş, 160-dan yuxarı artezian quyusu qazılmışdır və kəhrizlər bərpa olunmuşdur. Bunun hesabına 2003-cü ildə muxtar respublikanın əkinə yararlı torpaqları əgər 39 min hektarı əhatə edirdisə, Heydər Əliyev su anbarını istifadəyə verdiyinizdən, yeraltı suvarma şəbəkələri qurulandan sonra bu gün artıq 62 min hektar əkinəyararlı torpaqlardan istifadə olunur və muxtar respublika özünü ərzaqla tam təmin edə bilir. Deyə bilərik ki, Sizin rəhbərliyinizlə muxtar respublikada ərzaq, enerji və müdafiə təhlükəsizliyi məsələləri tam təmin olunubdur.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Eyni zamanda, əminəm ki, artıq ixrac potensialı da formalaşa bilər. Bildiyiniz kimi, Türkiyə tərəfi böyük addım ataraq Naxçıvanın istehsalı olan malların idxalı ilə bağlı da göstəriş vermişdir. Hesab edirəm ki, Naxçıvanın istehsal potensialı artdıqca ixrac imkanları da genişlənəcək.

Bir məsələyə də toxunmaq istəyirəm. Keçən il Naxçıvan büdcəsinin gəlirləri təqribən 400 milyon manata yaxın idi. İndi növbəti il üçün büdcə məsələləri müzakirə olunur. Əlbəttə ki, Naxçıvanın uğurlu və təhlükəsiz inkişafı üçün nə lazımdırsa, biz onu da edəcəyik. Ancaq bir məsələyə diqqətinizi cəlb etmək istəyirəm. Naxçıvan büdcəsinin cəmi 22 faizi yerli gəlirlər hesabına formalaşır, yəni, 383 milyon manatdan cəmi 83 milyon manatı yerli gəlirlər hesabına formalaşır, qalan 300 milyon manat Bakıdan dotasiya verilir. Hesab edirəm ki, növbəti illərdə yerli gəlirlərin artırılması istiqamətində işlər aparılmalıdır ki, onların faiz nisbəti artsın. Əminəm, belə olan halda daha da böyük imkanlar olacaq ki, sosial və sənaye layihələri icra edilsin.

Bütün ölkədə olduğu kimi, bu gün Naxçıvanda da maliyyə və iqtisadi sahələrdə şəffaflıq tam təmin edilməlidir. Bildirməliyəm ki, aparılan islahatlar nəticəsində təkcə bu ilin 10 ayı ərzində büdcə gəlirləri plandan əlavə 850 milyon manat artmışdır. Bunun yarısı gömrük, yarısı vergi orqanları hesabına formalaşıb. Bu əlavə 800 milyon manat sırf idarəetmədə aparılan islahatlarla, şəffaflıqla bağlıdır və bizə imkan verir ki, maaşları da, pensiyaları da artıraq, investisiya layihələrinə də vəsaiti artıraq. Ona görə gələn ilin büdcəsinə baxdıqda yerli gəlirlərin həm mütləq rəqəmlərinin artırılması, eyni zamanda, ümumi büdcədə yerli gəlirlərin faizinin artırılması üçün əlavə addımlar atılmalıdır.

**Vasif Talıbov:** Gələn ilin büdcəsi ilə əlaqədar deyə bilərik ki, maaş artımı ilə əlaqədar büdcənin həcmi də artmışdır. Gəlirlər hissəsi isə 12 milyon manata yaxın artırılmışdır, yəni, 2020-ci ilin büdcəsində yerli gəlirlər 100 milyon manata yaxındır. Pensiya və təqaüdlərin ödənilməsi üçün yerli büdcədə təqribən 100 milyon manata yaxın yığım nəzərdə tutulub.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Əminəm ki, bu dinamika gələn il də təmin ediləcək. Əminəm ki, muxtar respublika əhalisinin sosial rifahının yaxşılaşdırılması, respublika qarşısında duran bütün vəzifələrin icrası üçün bütün qüvvələr səfərbər ediləcək və 2020-ci il də Naxçıvan üçün uğurlu olacaqdır.

***Baki-xeber.com***

# Prezident Əliyevin "faşist erməni qəhrəmanına" qarşı çağırışları Ermənistanı bərk yaraladı...

**Azərbaycan Prezidenti İlham Əliyevin konkret faktlara əsaslanaraq, Ermənistanı faşizm ideologiyasını dəstəkləməkdə ittiham etməsi və bu məsələni beynəlxalq arenaya çatdırması düşmən ölkədə böyük narahatlıqla qarşılanıb. Erməni mediası xüsusilə də İlham Əliyevin Bakıda beynəlxalq yəhudi təşkilatlarının rəhbərlərini qəbul edərkən onlara Njde ilə bağlı məlumat verməsi faktına böyük yer ayırır.**



***Daşdəmir Əliyev:*** *"İndi onun arxa bağçasında rus millətinə, dövlətinə təhqir sayıla biləcək proseslərin baş verməsi Moskvaya başucalığı gətirmir"*

Hiss olunur ki, ermənilər bu yöndə keçirdikləri narahatlıqları bizim adımıza yazmaq istəyirlər. Qeyd edirlər ki, guya Azərbaycan Dağlıq Qarabağla bağlı məğlubiyyəti unutdurmaq üçün belə mövzuları ortaya atır. Ermənilərin İlham Əliyevin Njde ilə bağlı məsələdə kəskin mövqeyindən dərin narahatlıqlar keçirməsinin kökündə hansı amillər durur?

Hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, ermənilərin narahatlıqları tam əsaslıdır: "Onlar görürlər ki, İlham Əliyev olduqca vacib məqama toxunur və konkret faktlarla danışır. Bir ölkə dövlət siyasətində iki tərs mütənasib olan dəyəri qəbul edə bilməz. Ermənistan həm özünü faşizmlə mübarizə aparan respublikanın varisi kimi qələmə verir, həm də Hitlerin yaxın silahdaşı olan bir faşisti milli qəhrəman səviyyəsinə qaldırır. Bunlar bir-birilə kökdən zidd olan məsələlərdir. Erməni KİV-i Azərbaycanın bu istiqamətdəki təbliğatında başqa detallar axtarmağa çalışır. Fikri çaşdırmaq üçün guya bizim məqsədli şəkildə öz uğursuzluğumuzu örtbasdır etmək üçün bu mövzuya baş vurduğumuzu yazırlar. Biz ermənilərə hələ məğlub olmamışıq. Ermənilər bilsinlər ki, ölkəmizdə itirilən torpaqları geri qaytarmaq üçün əzm, ruh və maddi güc var. Yaxın zamanda biz bunu təmin edəcəyik. İlham Əliyev Njde məsələsinə hər zaman yerində toxunub. Aşqabaddakı görüşdə MDB başçıları məhz faşizm üzərində qələbəni müzakirə edirdilər. İlham Əliyev Njde və Ermənistanın deyilən mövzu ilə bağlı yürütdüyü ikibaşlı siyasətdən orada danışdı. Yəhudi təşkilatları rəhbərlərini qəbul edərkən də bu mövzuda danışması mövzuya tam uyğundur. Çünki dünyada faşizmdən ən çox zərər görən yəhudilər olublar. Onlar hər zaman bu amillə mübarizə aparırlar. Bu səbəbdən də İlham Əliyevin dünyada güclü olan yəhudi lobbisinə faşizm ənənələrinə sadiqlik nümaiş etdirən ölkənin ünvanını göstərməsi ermənilərdə dərin narahatlıq yaradır. Bilirlər ki, yəhudi təşkilatları bu halla mübarizə aparacaqlar.

*"Njde məsələsində ermənilər artıq dalana direniblər"*

Təhlükəni real hiss etdikləri səbəbindən belə təbliğata start veriblər. Əslində, bu məsələdə əsas fəallığı Rusiya göstərməlidir. Çünki faşizm üzərində qələbənin avanqardı rolunu o oynayıb. İndi onun arxa bağçasında rus millətinə, dövlətinə təhqir sayıla biləcək proseslərin baş verməsi Moskvaya başucalığı gətirmir. Njde məsələsində ermənilər artıq dalana direniblər. Hiss edilir ki, vəziyyət gərgindir. Faşistin heykəlinin götürülməsi məsələsinin məhz İlham Əliyevin nəzərində olması, tez-tez bu mövzuya müraciət etməsi mütləq mənada effekt verəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Prezident Əliyev hitlerçi cəlladları qəhrəmanlaşdıran Ermənistana qarşı mübarizəyə dünyanın güclü yəhudi təşkilatlarını da qoşdu...

**"Biz ümid edirik dünyadakı yəhudi icmaları bizim səsimizə səs verəcək və Ermənistan hökumətini bu abidəni sökməyə məcbur edəcəklər". Bu fikirləri Prezident İlham Əliyev Simon Vizental Mərkəzinin həmtəsisçisi və sədr müavini, yəhudi din xadimi Rabbi Abraham Kuperi və ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri, yevangelist din xadimi Conni Muru qəbul edərkən bildirib.**



## *Məhəmməd Əsədullazadə: "Ölkə başçısının yəhudiləri erməni-faşizm tandeminə qarşı mübarizəyə dəvət etməsi müəyyən bir prosesə gətirəcək"*

Prezidentin fikrincə, MDB məkanında faşistləri tərənnüm edən yeganə ölkə Ermənistandır. Ölkə başçısı qeyd edib ki, Ermənistanın yeni hökumətini həmin abidəni sökməyə çağırıb, çünki onu əvvəlki hökumət ucaltmışdı: "Yeni hökumət özünü demokratik hökumət kimi göstərir. Beləliklə, bunu göstərin, abidəni sökün. Mənim ittihamlarım ona qarşı deyildi, onun qondarma inqilab nəticəsində devirdiyi sələflərinə qarşı idi və o dedi: Soljenitsın da həbsdə olub və bir çox başqa sovet dissidentləri Vladimir həbsxanasında olublar. Beləliklə o, faktiki olaraq deyirdi ki, faşist qatil Soljenitsınla eynidir. Bundan daha səfeh bəyanatı təsəvvürə gətirmək mümkün deyil. Bu səbəbdən, əlbəttə ki, biz hər şeyi olduğu kimi deməliyik. Biz bilirik ki, Amerikada, Rusiyada, Fransada, Minsk Qrupunun həmsədr ölkələrinin hamısında erməni lobbisi var. Lakin bir həqiqət var. Qələbənin 75-ci ildönümü ərəfəsində biz Yerevanın mərkəzində bu abidənin olmasına necə dözə bilərik? İndi onlar - mən mətbuatdan eşitmişəm - Bolqarıstanda abidə tikməyə çalışırlar. Onlar birini Rusiyanın Armavir şəhərində ucaldıblar. Çox cəsur bir insan gəlib onun üstünə qara boya töküb və indi erməni diasporu ona hücum edir. Onlar faşisti müdafiə edirlər. Ona görə də, əlbəttə ki, biz ümid edirik dünyadakı yəhudi icmaları bizim səsimizə səs verəcək və Ermənistan hökumətini bu abidəni sökməyə məcbur edəcəklər".

Məlum məsələdir ki, yəhudi icmasının dünyada imkanları böyükdür. Yəhudi təşkilatlarının bu yöndə fəaliyyətlərini artırması müsbət effekt verə bilər. Bu baxımdan Prezidentin hitlerçi cəlladları qəhrəmanlaşdıran Ermənistana qarşı mübarizəyə dünyanın güclü yəhudi təşkilatlarını da qoşmasını ekspertlər necə dəyərləndirir? Sözügedən məsələni baki-xeber.com-a şərh edən politoloq Məhəmməd Əsədullazadə ölkə başçısının bununla bağlı fəaliyyətinə müsbət prizmadan yanaşdı: "Əvvəla, Bakıda keçirilən dini liderlərin 2-ci Sammiti ölkəmizin siyasi-dini mövqeyinin əhəmiyyətli şəkildə güclənməsinə xidmət edir. Burada verilən mesajlar həqiqətən də dünyanın bugünkü problemləri fonunda aktual əhəmiyyət kəsb edirdi. Təəssüf ki, bu gün ksenofobiya, antisemitizm, hətta faşizm yenidən dirçəlir və qlobal bir böhrana qədəm qoyur. Dünya üçün təhlükəli olan bir ideologiyanın yenidən, hətta dövlət səviyyəsində təbliği yeni çalarlar alır. Belə olan təqdirdə sülh və təhlükəsizlik, xalqların qarşılıqlı əməkdaşlığı sual altına düşür. Məhz Ermənistan bu gün faşizm ideyalarını təbliğat siyasətinə çevirib. Faşist Qaregin Njdeyə abidə qoyulması, bunun təbliğ edilməsi regionumuz üçün də təhlükə vəd edir. Hesab edirəm ki, Prezident İlham Əliyevin yəhudi din xadiminə bu xüsusda danışması dünya yəhudilərinin ermənilərin bu "sevgisinə" qarşı mübarizə aparmasına gətirə bilər. Bəli, bu gün faşizm Ermənistanda məhz Azərbaycana qarşı yönəlib. Bunu dünya miqyasına çıxarmaq, işğalçı ölkənin bu kimi təbliğatının qarşısını vaxtında almaq bəşəriyyəti yeni bəladan qorumaq deməkdir. Prezident İlham Əliyevin yəhudiləri erməni-faşizm tandeminə qarşı mübarizəyə dəvət etməsi müəyyən bir prosesə gətirəcək. Yəni yəhudi təşkilatlarının bu yöndə aktivliyini artıracağı gözlənir".

*"Sözügedən təşkilatların bu yöndə aktivliyini artıracağı gözlənir"*

***Vidadi ORDAHALLI***

---

# Bakı Zirvəsinin iştirakçısı olmuş dünya din xadimləri öz ölkələrində Qarabağ həqiqətlərini yayan qüvvə kimi...

**Bir neçə gün əvvəl Bakıda Dünya Dini Liderlərinin II Bakı Sammiti keçirildi. Dünyanın müxtəlif ölkələrini və dinlərini təmsil edən 500-dən artıq din xadimi paytaxtımızda olarkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sammitin açılış mərasimində etdiyi çıxışdan Azərbaycanın üzləşdiyi Dağlıq Qarabağ problemi, Ermənistanın torpaqlarımıza təcavüzü haqqında geniş məlumat aldılar.**




## *Vaqif Abışov: "Ölkəmizdə belə sammitlərin keçirilməsi və bura müxtəlif ölkələrdən nümayəndələr dəvət edilməsi vacibdir"*

Dünya dini liderləri ölkəmizdə olarkən Dağlıq Qarabağ həqiqətləri haqqında kifayət qədər məlumata malik oldular və onlar Ermənistanın təcavüzkar bir dövlət olduğu barədə bilgilər əldə etdilər.

Bakı Sammitində iştirak edən dünya dini liderləri öz ölkələrinə qayıtdıqdan sonra Dağlıq Qarabağ həqiqətlərinin təbliği baxımından öz ölkələrində hansı işləri görə bilərlər?

Tarixçilər hesab edirlər ki, dünya dini liderləri Bakıda olarkən sammit çərçivəsində bir sıra həqiqətlərlə tanış oldular. Onların sözlərinə görə, müxtəlif dinlərə mənsub olan ölkələrin dini liderlərinin iştirakı ilə bu cür sammitlərin keçirilməsinin Dağlıq Qarabağ probleminin həm ədalətli həllinə dəstək, həm də bu münaqişə ilə bağlı əsl həqiqətlərin iştirakçı dini liderlərin ölkəsində yayılmasına böyük təkan olacaq.

Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov "Bakı-Xəbər"ə bildirdi ki, həm Dünya Dini Liderlərinin II Bakı Sammiti, həm də ondan əvvəl keçirilən humanitar və digər yönlü tədbirlər Azərbaycanın ədalətli mövqeyinin, haqq davasının xarici ölkələrdə yayılmasına, təbliğ edilməsinə şərait yaradır. "Ölkəmizdə belə sammitlərin keçirilməsi və bura müxtəlif ölkələrdən nümayəndələr dəvət edilməsi vacibdir. Bu tədbirlərdə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyinə dair məlumatlar həmin tədbir iştirakçılarına çatdırılır. Eyni zamanda, Azərbaycanın beynəlxalq aləmdə tanınması, ölkəmizin inkişafının təbliği baxımından bu tədbirlərin əhəmiyyəti çox böyükdür. Dünyanın dörd bir yanından gələn dini liderlərin iştirakı ilə keçirilən II Bakı Sammitinin də bu baxımdan faydası, əhəmiyyəti çoxdur. II Bakı Sammitində iştirak edən dini liderlərin Qarabağ həqiqətlərinin ölkələrində təbliğ edilməsində müstəsna rolu ola bilər. Dünyanın bir sıra ölkələrindən Bakıya gələn din xadimləri burada olarkən Azərbaycan Prezidentinin dilindən Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu, Ermənistanın təcavüzkar dövlət kimi Azərbaycan ərazilərini işğal etdiyini, hələ də işğal altında saxladığını bir daha eşitdilər. Hesab edirəm ki, Bakı Sammitində iştirak edən din xadimləri Bakıda eşitdikləri, əldə etdikləri bilgiləri öz ölkələrində geniş şəkildə yaymalı və həmin məlumatları müxtəlif tribunalardan səsləndirməlidirlər. Əslində, din xadimlərinin əsas vəzifələrindən biri həqiqəti deməkdir.

Azərbaycanın üzləşdiyi ədalətsizliklər haqqında bu gün beynəlxalq aləmdə daha çox təbliğat aparılmalıdır. Doğrudur, uzun illərdir bu istiqamətdə təbliğat aparılır, amma bu təbliğat bir az da genişləndirilməlidir. Bu təbliğatda din xadimlərinin rolu danılmazdır. Fikrimcə, Bakıya gələn dünya dini liderləri burada Dağlıq Qarabağ həqiqətləri haqqında müfəssəl məlumat aldılar və Ermənistanın təcavüzkar ölkə kimi Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasəti barədə bilgiyə malik oldular, onların vəzifəsi bu həqiqətləri öz ölkələrində yaymaqdır" - deyə V.Abışov qeyd etdi.

*"Bakıya gələn dünya dini liderləri burada Dağlıq Qarabağ həqiqətləri haqqında müfəssəl məlumat aldılar"*

***İradə SARIYEVA***

**Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov sosial mediada yeni məqalə ilə çıxış edib. Ə.Həsənov həmin məqaləsində radikal müxalif dairələrin fəaliyyətini saxta əsaslarla qurduğuna dair konkret faktları açıqlayıb.**

# "Facebook" rəhbərliyinin sərt qərarı Milli Şura radikallarının feyk izləyicilər rekordunu ifşa etdi...

## Azər Həsrət: "Həmin qərarın təsirini biz müxalif dairələrə gələn bəyənmə sayında görürük"



Bildirib ki, qlobal şəbəkələrin saxta profillərlə apardıqları mübarizədən ən böyük zərərlə çıxanlardan biri də bizim radikal müxalifət olub: "İkincisi, bəlli olur ki, Əli Kərimli və radikal antimilli ətrafı sosial şəbəkələrdə izləyicilərinin yarıdan çoxunu itiriblər. Onların "Facebook" səhifəsində bəyənmələrin, paylaşımların statistikasında azalma templəri güclənib. Xatırladaq ki, "Facebook" sosial şəbəkəsi administrasiyası bəyan edib ki, bu il 5,4 milyard saxta hesabı bağlayıb. Bu, sosial mediada manipulyasiya və dezinformasiyaya qarşı savaşın davam etdiyini göstərir. "Saxta, manipulyasiya məqsədilə yaradılan hesabları aşkarlayaraq bloklamaq qabiliyyətimizi gücləndirmişik", - internet şirkəti hesabatında bildirir. Diqqətli oxucu bu iki hadisə arasında paralel apararaq asanlıqla Əli Kərimli, Cəmil Həsənli və radikal antimilli ətraflarının izləyici və bəyənmə itkilərinin "Facebook" şəbəkəsinin öz araşdırmasının, dezinformasiyaya qarşı effektiv mübarizəsinin nəticəsi olduğunu anlaya bilir".

Açıqlanan bu məlumat radikal müxalifətin apardığı təbliğatın sabun köpüyü olduğuna və qlobal şəbəkələrin bir düyməsindən asılılığına dair növbəti sübut sayıla bilərmi?

Media məsələləri üzrə ekspert Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələ elə Əli müəllimin özü və bizlər tərəfindən də zaman-zaman gündəmə gətirilib: "Dediyiniz son məqaləni mən də oxudum. Kifayət qədər tutarlı təhlildir. Əsaslandırmalar, arqumentlər çox dəqiqdir, konkret faktlara söykənir. Həmin radikal dairələrə belə tutarlı cavabların verilməsi lazımdır. Yazıdakı bütün fikirləri təqdir edirəm. Bizdəki radikal dairələr saxta profillərdən istifadəni artıq öz fəaliyyət normalarına çeviriblər. Çünki düşünürlər ki, stakanda fırtınanı məhz bu üsulla qoparmaq olar. Bir müddət sosial medianın imkanları onlara sərbəst fəaliyyət üçün şərait yaradırdı. Onlar da bundan geninə-boluna istifadə etdilər. Vicdanlarını qarşılarına qoyub, hesabat vermədiklərinə görə bir adam sosial mediada bəzən 20 profillə çıxış edirdi. Radikal dairələr küçəyə adam çıxara bilmirlər. Çünki say göz qabağında olur. Yalnız bu üsulla sayların çox olması, arxalarında böyük elektoratın durması təəssüratını yaradırlar. Son mtinq və piket cəhdlərində biz gördük ki, həmin dairələrin arxasında heç də sosial şəbəkələrdə ifadə olunan say yoxdur. Artıq elə vəziyyət yaranıb ki, saxta profillərlə yalnız naşı adamları aldatmaq mümkündür. Təcrübəli adamlar saxta profillə yazılan məlumatlara, onların vasitəsilə olunan çağırışlara inanmırlar. Artıq özləri də dərk edirlər ki, saxta profilləri meydana çıxarıb, onların vasitəsilə mitinq etmək mümkün deyil. Hörmətli Əli müəllim də bu mexanizmin saxtalığına bir daha diqqət yönəldib. Belə saxta taktika ilə mübarizə aparan adamların siyasətdə olması doğru deyil.

### "Saxtakarlığa yerin verilməməsi onların fəaliyyətini tam heçə endirəcək"

Cəmiyyət onları rədd etməlidir. Bəli, qlobal miqyasda saxta profillərlə aparılan mübarizə nəticəsində çoxlu sayda profil bağlanıb. Həmin qərarın təsirini biz müxalif dairələrə gələn bəyənmə sayında görürük. Radikal məzmunlu çıxışları bəyənmə və təkrar paylaşımındakı sayın əhəmiyyətli azalması elə bundan doğan nəticə sayıla bilər. Qabaq fəaliyyətləri yalnız qəzetlərdə görünən müxalifət indi də sosial şəbəkələrə transfer olub. Saxtakarlığa yerin verilməməsi onların fəaliyyətini tam heçə endirəcək".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Almaniyanın hüquq-mühafizə orqanları Azərbaycanın Müsavat Partiyasının bir neçə fəal üzvünü saxlayıb. Cinayətkar şəbəkəyə daxil olan 7 nəfər həbs edilib. Onlar saxta mühacir alverində təqsirli bilinirlər. Cinayətkar dəstənin saxlanan üzvləri barəsində yerli federal məhkəmələr tərəfindən 6 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.**

# Müsavat Partiyasının özünü buraxması üçün daha nə baş verməlidir - Almaniya hadisələrinin uzantıları...

## Samir Adıgözəlli: "...partiyanın fəaliyyətinə xitam verməlidir"




Həbslərin əsasən Müsavatın Avropa qanadı sayılan Avropa Koordinasiya Mərkəzi (AKM) adlı qurum ətrafında baş verdiyi bildirilir.

Baş verən bu hadisə Azərbaycanın daxilində də ciddi narahatlığa səbəb olub. Biabırçılığa ilk kəskin reaksiyanı elə Müsavatın indiki və keçmiş üzvləri: Yadigar Sadıqlı, Alya Yaqublu, Taleh Xasməmmədov veriblər. Sosial şəbəkələrdə isə insanlar kütləvi şəkildə Müsavat rəhbərliyini istefaya, hətta partiyanı buraxmağa çağırıblar. Müsavat Partiyası funksionerləri isə hər vəchlə məsuliyyətdən yayınmağa, ictimai qınaqdan qaçmağa çalışırlar.

Müsavatın ətrafında son qalmaqalla bağlı hakimiyyətə qarşı radikal müxalif mövqeyi ilə seçilən jurnalist Xədicə İsmayılova da partiya rəhbərliyini istefaya çağırıb. Müsavat rəhbərliyinə istefa verməsi barədə müraciətindən sonra X.İsmayılova hücuma məruz qalıb. Onu sosial şəbəkələrdə təhqir etməyə başlayıblar.

Müsavat rəhbəri Arif Hacılı, öz növbəsində, jurnalistə "böhtan və şantaj" səbəbindən istefaya getməyəcəyini deyib. Göründüyü kimi, Müsavatın indiki rəhbərliyi ittihamları yaxına buraxmaq belə istəmir. Nəinki partiyanı buraxmaq, heç istefa vermək fikirlərinin olmadıqlarını bəyan edirlər. Bu cür ictimai qınağın fonunda Müsavat Partiyası nə etməlidir, daha nə olmalıdır ki, onlar özlərini buraxsınlar?

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə bildirdi ki, yaranmış vəziyyəti yaxından izləyir və dərin təəccüb keçirir: "Müsavat Partiyasının fəaliyyətini yaranandan izləyirəm. Açığını deyim ki, bu gün baş verənlər mənim üçün dərin yenilik sayılmır. Partiyanın ən güclü vaxtında, vitrini ziyalılarla dolu olan zamanda məni İsa Qəmbər məhkəməyə verdi, mətbuatda onu tənqid etdiyimə görə. Deməyim budur ki, onlar yarandığı gündən demokratik dəyərlərə hörmətlə yanaşmayıblar. Bilirsiniz, müsavatçılığı bir zümrə mənimsəyə bilməz. Şəxsən mən özümü Arif Hacılıdan da, İsa Qəmbərdən də çox müsavatçı sayıram. Axı bu ad bizim üçün dəyərdir. Həmin məfkurənin kökündə bizim müstəqilliyimiz, azadlığımız durur. Belə adla necə alver etmək olar? Əgər Arif Hacılı və onun yaxın ətrafı pul qazanmaq istəyirsə, onda bir MMC açıb kommersiya fəaliyyəti ilə məşğul olsunlar. Ortada bu dərəcədə faktlar ola-ola bunlar müqavimət göstərirlər. Çünki öyrəniblər, özlərinə yaxın hansısa şəxsi konkret cinayət əməlinə görə həbs edirdilərsə, həmin dəqiqə çıxıb onu "siyasi məhbus" adlandırırdılar. İndi edə bilmirlər. Çünki həbsləri Almaniya polisi aparıb. Hesab edirəm ki, indiki rəhbərlik nəinki istefa verməli, ümumiyyətlə, partiyanın fəaliyyətinə xitam verməlidir.

### "Bu cür cinayətləri müqəddəs adın belinə yükləmək olmaz"

Bu cür cinayətləri müqəddəs adın belinə yükləmək olmaz. Hərə bir brendi mənimsəyib, nə istədi edə bilməz. Sağ olsunlar, vəziyyətə daha çox etirazı elə indiki və sabiq müsavatçılar edirlər. Bundan sonra onların reabilitasiya oluna bilmələri getdi. Onlar Müsavatın partiya kimi fəaliyyətinə son qoymaqla bağlı qərar çıxarmalıdırlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Dünyanın dini və siyasi liderlərini gələn il Bakıya toplayacaq böyük hədəf...

**Azərbaycan son illər bir çox mötəbər toplantının keçirildiyi məkana çevrilib. Dünya və regional əhəmiyyətli bu tədbirlər ictimai spektrin müxtəlif hissələrini - hərbi, humanitar, iqtisadi sahələrini əhatə edir. Noyabrın 14-15-də Bakıda baş tutan, 70 ölkədən 500 nümayəndənin, nüfuzlu beynəlxalq təşkilatların qatıldığı Dünya Dini Liderlərinin 2-ci Zirvə Görüşü öz əhəmiyyəti və miqyası baxımından rezonans doğuran beynəlxalq tədbir idi.**



## *Seyid Camal Əzimbəyli: "Bu, Azərbaycana verilən önəmin göstəricisidir ki, növbəti dəfə Bakı mötəbər tədbirə evsahibliyi edəcək"*

Dünya Dini Liderlərinin II Sammitinin Bakı Bəyannaməsi qəbul edilib. Bəyannamədə bir sıra məqamlar öz əksini tapıb. Bakı Bəyannaməsində diqqətçəkən məqamlardan biri də Azərbaycana növbəti dəfə verilən önəmlə bağlıdır. Dünya Dini Liderlərinin II Bakı Sammitində irəli sürülən, Azərbaycan tərəfinin 2020-ci ildə Bakıda "Media və sosial şəbəkələrdə nifrətə çağırışlara qarşı mübarizədə dini liderlərin və siyasi xadimlərin birgə fəaliyyəti" mövzusunda BMT, KAİCİİD və Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin həmtəşkilatçılığı ilə beynəlxalq konfransın keçirilməsi təşəbbüsü alqışlanıb.

Dini liderlərin yeni media pltaforması ilə bağlı çağırışı maraqlı məqamları özündə əks etdirir. Birgə Bəyannamədə media, rabitə və informasiya texnologiyaları vasitəsilə irqi, dini və etnik zəmində zorakılığa təhrik edən zərərli ideologiyaların və təbliğatların, nifrətə çağırışların qarşısının alınmasında əməkdaşlığın artırılmasına, gənclərin bu sahədə maarifləndirilməsini təşviq etməyə çağırış sosial mediada dini dözümsüzlüyü körükləyən qüvvələrə qarşı virtual mübarizəni ehtiva edir. Görünən odur ki, gələn il də dünyanın dini və siyasi xadimləri Azərbaycanda bir araya gələcəklər.

Ümumilikdə, belə bir konfransın növbəti il Bakıda keçirilməsinin əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, 2020-ci ildə Bakıda "Media və sosial şəbəkələrdə nifrətə çağırışlara qarşı mübarizədə dini liderlərin və siyasi xadimlərin birgə fəaliyyəti" mövzusunda keçiriləcək konfrans çox önəmli hadisədir: "Bəyannamədə bunun öz əksini tapması çox önəmli hadisədir. Bu, Azərbaycana verilən önəmin göstəricisidir ki, növbəti dəfə Bakı mötəbər tədbirə evsahibliyi edəcək. Belə bir tədbir üçün Azərbaycanın seçilməsi təsadüfi deyil. Məsələ ondadır ki, Azərbaycan dünyada ən tolerant ölkədir. Müxtəlif mədəniyyətlərin qovuşuğunda yerləşən Azərbaycan bu zirvə görüşündə özünün tolerantlıq modeli ilə toplantıya toplaşmış dini və ictimai liderlərdə yaxşı təəssürat yarada bildi. Sammitin tribunasından dövlətimizin önəm verdiyi bu prioritetlər dünya dini liderlərinin qarşısında bir daha bəyan olundu. Mötəbər tədbirdə müxtəlif dinləri təmsil edən rəhbərlərin tolerantlığa çağıran çıxışlarının qarşısına Azərbaycanın vahid multikultural və dini çələnglə çıxması dövlətimizin apardığı uğurlu siyasi xəttin parlaq sübutu oldu. Azərbaycan toplantıda humanist dəyərlərlə söykənən nümunəsini, təcrübəsini dünya ilə bölüşməyə hazır olduğunu bir daha bəyan etdi. Bunun nəticəsidir ki, toplantıda iştirak edənlər gələn il Bakıda keçiriləcək toplantıya yekdilliklə tərəfdar oldular. O da məlumdur ki, son illər bu məsələ çox aktual əhəmiyyət kəsb edir. Elektron medianın və sosial şəbəkələrin cəmiyyətdə rolu artıb.

*"Dünyadakı dini və siyasi xadimlər belə zərərli çağırışlara qarşı səylərini birləşdirsə, bunun müsbət effekti olacaq"*

**Bundan sui-istifadə edənlər də az deyil. Hansı ki, sosial şəbəkələrdə zərərli çağırışlar edirlər, etnik-dini zəmində nifrəti körükləyirlər. Ona görə də dünyadakı dini və siyasi xadimlər belə zərərli çağırışlara qarşı səylərini birləşdirsə, bunun müsbət effekti olacaq. İnanıram ki, bununla bağlı gələn il Bakıda keçiriləcək tədbir möhtəşəm olacaq".**

***Vidadi ORDAHALLI***

# Bələdiyyə üzvlüyünə namizədlərin sayı son beş ildə 15 min nəfər azaldı - ciddi hadisə...

**Dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində iştirak etmək üçün 41 841 nəfər müraciət edib, onlardan 22 529 nəfərin namizədliyi qeydə alınıb. Bu barədə Mərkəzi Seçki Komissiyası məlumat yayıb. Qurumdan bildirilib ki, 27 249 nəfər fərdi qaydada müraciət edib.**



## *Abil Bayramov: "Bunun başlıca səbəbi bələdiyyələrlə bağlı gözləntilərin azalmasıdır"*

14 564 nəfərin namizədliyi siyasi partiyalar tərəfindən, 28 nəfərin namizədliyi isə təşəbbüs qrupları tərəfindən irəli sürülüb. Bələdiyyə seçkilərində iştirak etmək üçün müraciət edən siyasi partiyaların sayı 10-a çatıb. Bunlar Yeni Azərbaycan Partiyası (YAP), Azərbaycan Demokratik İslahatlar Partiyası, Böyük Quruluş Partiyası, Vətəndaş Birliyi Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Azərbaycan Demokrat Maarifçilik Partiyası, Azərbaycan Sosial Demokrat Partiyası, Azərbaycan Ümid Partiyası və Ana Vətən Partiyasıdır.

Azərbaycanda bələdiyyə seçkiləri 1999-cu ildən keçirilir. Cari ildə keçiriləcək seçkilər sayca 4-cü olacaq. Respublika üzrə 1606 bələdiyyəyə 15 min 156 üzv seçiləcək. Sonuncu bələdiyyə seçkisi 2014-cü il dekabrın 23-də keçirilib.

Diqqətçəkən məqamlardan biri beş il əvvəlki dövrlə müqayisədə namizədlərin sayında müşahidə edilən azalmadır. Məsələ ondadır ki, 2014-cü ildə keçirilən bələdiyyə seçkilərində 37 min 77 nəfər namizədliyini irəli sürüb. Ancaq bu dəfə keçiriləcək seçkilərdə namizədlərin sayı 15 min nəfər azaldı. Son illər bələdiyyələrlə bağlı qanunvericilik təkmilləşdirilir, bir sıra digər işlər görülür. Belə olan halda, bələdiyyələrə ictimai maraq niyə aşağıdır? Ümumən, namizədlərin sayının az olması nə ilə bağlıdır?

Məsələyə münasibət bildirən bələdiyyələr üzrə ekspert Abil Bayramovun sözlərinə görə, bunun bir sıra səbəbləri var: "Bunun birinci səbəbi ümumi seçici fəallığının aşağı olmasıdır. İkincisi, bələdiyyələrlə bağlı gözləntilərin azalması ilə bağlıdır. Nəzərə almaq lazımdır ki, bələdiyyənin özünə maraq azalıb. Çünki əvvəllər bələdiyyədən daha çox gözlənti var idi. İndi həmin gözlənti əsasən özünü doğrultmadığına görə namizədliyini verənlərin sayı da kəskin şəkildə azalıb. Əsasən bununla əlaqədar belə vəziyyət yaranıb. Namizədlərin sayında artıma nail olmaq üçün, ilk növbədə, bələdiyyə institutuna münasibət dəyişməlidir. Bələdiyyələr doğrudan da yerli hakimiyyət qurumları kimi nəzərdən keçirilməlidirlər. Buna uyğun da həm bələdiyyələrə konkret səlahiyyətlər verilməli, həm də dayanıqlı maliyyə mənbələri ilə təmin edilməlidirlər. Bələdiyyələr həmin maliyyə mənbələrindən istifadə etməklə o səlahiyyətləri icra etmiş olsunlar.

*"Namizədlərin sayında artıma nail olmaq üçün, ilk növbədə, bələdiyyə institutuna münasibət dəyişməlidir"*

Nəticədə əhali bələdiyyədən keyfiyyətli ictimai xidmətlər ala bilsin. Vətəndaş bələdiyyədən keyfiyyətli xidmət ala bilmirsə, o zaman bələdiyyə seçkilərinə maraq ola bilərmi? Təbii ki, yox. Hesab edirəm ki, bu istiqamətdə ciddi addımlar atılmalıdır. Ümumilikdə, bu sahədə vətəndaş iştirakçılığının səviyyəsinin artırılmasına ehtiyac var. Onun səviyyəsinin aşağı olması seçkilərə də öz təsirini göstərir. Xüsusən də bələdiyyə seçkilərində bunu açıq-aşkar görmək mümkündür".

***Vidadi ORDAHALLI***

**Erməni mətbuatının yazdığına görə, ABŞ-da Ermənistana yardım qanununun qəbul edilməsi ilə bağlı proseslər başlayıb. Bununla bağlı qeyd olunur ki, ABŞ Konqresində ermənipərəst konqresmenlər bu yöndə aktivliklərini artırırlar.**

# Ermənipərəst ABŞ konqresmenləri Ermənistana yardım qanunu üçün lobbiçiliyə başladı...



## *Ramil Hüseynov: "Düşünmürəm ki, yaxın perspektivdə ABŞ-da Ermənistana yardımla bağlı qanun qəbul edilsin"*

ABŞ-da səfərdə olan Ermənistan parlamentinin nümayəndə heyətinin rəhbəri Lilit Makunts bildirib ki, Ermənistan-ABŞ dostluq qrupu Birləşmiş Ştatların Ermənistana yardım qanununun qəbul edilməsi prosesinə təşəbbüs göstərir. Belə ki, Vaşinqtonda keçirilən ekspert forumunda çıxış edən L.Makunts bir az da irəli gedərək, belə bir qanunun qəbulunun tezləşdirilməsi ilə bağlı fikirlər səsləndirib. O iddia edib ki, belə bir qanun qəbul edilsə, bu, ikitərəfli münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldıracaq: "Bəyanatlardan öhdəliklərə keçmək lazımdır. Bu akt hər iki tərəfin öhdəliklərini əhatə edir".

L.Makunts onu da qeyd edib ki, Ermənistana yardım aktı strateji əlaqələrin məntiqi davamıdır: "Təşəbbüs Konqresdəki tərəfdaşlardan dəstək aldı".

Görünən odur ki, erməni lobbisi indiki şəraitdə fəallığını artıraraq ABŞ-dan daha çox yardım qoparmaq və bunun miqyasını genişləndirmək istəyir. Bunun üçün də sözügedən məsələ ilə bağlı səylərini artırıblar. Hesab edirlər ki, ABŞ-Türkiyə münasibətlərində yaranan fikir ayrılıqları buna əlverişli zəmin yaradır.

Maraqlıdır, bəs ekspertlər ABŞ-da Ermənistana yardım qanununun qəbul edilməsi perspektivini necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, erməni lobbisi çoxdan bu yöndə səy göstərir: "Bu çox təhlükəli tendensiyadır. Nəzərə almaq lazımdır ki, ABŞ Konqresinin Nümayəndələr Palatası qondarma "erməni soyqırımı" ilə bağlı qətnamə qəbul edəndən sonra ermənilərin bununla bağlı ümidləri artıb. Hesab edirlər ki, bunula bağlı təşəbbüslərin yenidən qaldırılması üçün ən uyğun vaxtdır. Ancaq düşünmürəm ki, yaxın perspektivdə ABŞ-da Ermənistana yardımla bağlı qanun qəbul edilsin. Məsələ ondadır ki, hər şey Konqresdəki ermənipərəst konqresmenlərin istəyi ilə ölçülmür.

*"Nəzərə almaq lazımdır ki, Nikol Paşinyanla bağlı Vaşinqtonun gözləntiləri özünü doğrultmadı"*

Super güc olaraq ABŞ-ın özünün də dövlət maraqları var. Nəzərə almaq lazımdır ki, Nikol Paşinyanla bağlı Vaşinqtonun gözləntiləri özünü doğrultmadı. ABŞ ümid edirdi ki, Paşinyan Ermənistanı Rusiyanın təsir dairəsindən çıxaracaq. Yaxud da, ən azından, bu yöndə səylərini artıracaq. Ancaq gözləntilərin əksinə olaraq, Paşinyan Rusiya ilə daha da yaxınlaşma kursu götürdü. Belə olan halda, ABŞ Ermənistana yardımı niyə artırsın ki? O üzdən, bu təşəbbüslərin reallaşacağını düşünmürəm".

***Vidadi ORDAHALLI***

**Qondarma tarix yaratmaqda mahir olan ermənilər artıq tarixdə yaşamış peyğəmbərləri də "erməniləşdirməyə" başlayıblar. Ermənilər son illər davamlı olaraq "qədim sənədlərə" istinadən müxtəlif xəritələr çap edir, həmin xəritələri xarici dillərdə ayrı-ayrı ölkələrdə yayırlar.**

# Ermənilərin yeni yuxusu - Adəmin, Həvvanın, Nuhun vətəni Ermənistan...



## *İsmayıl Tanrıverdi: "Bu xəritə tamamilə saxtadır və erməni yalanlarının təbliğinə həsr olunub"*

Onlar Rusiya ictimaiyyəti üçün "Armeniya-strana boqov, strana Adama, Yevı, Noya. Armeniya veçna kak sama zemlya" adlanan saxta xəritə çap edərək yayıblar.

Qeyd edək ki, sözügedən saxta xəritə sosial şəbəkələrdə yayılıb.

BDU-nun Tarix fakültəsinin erməni araşdırmaları elmi-tədqiqat mərkəzinin böyük elmi işçisi İsmayıl Tanrıverdi "Bakı-Xəbər"ə bildirdi ki, ermənilər tərəfindən rus dilində nəşr edilən xəritəni ona Fransadakı erməni diasporunun fəal üzvlərindən Lala Nakobyan göndərib. "Bu saxta xəritənin şəklini mənə L.Nakobyan adlı bir qadın göndərib. O, Fransadakı erməni diasporunun fəal üzvlərindən biridir. Bu xəritəni mənə məqsədli şəkildə göndərib. Deyir ki, baxın, bu bizim əsl tarixi xəritəmizdir. Mən o qadının layiqli cavabını faktlarla verdim. Hətta erməni alimlərinin özlərinin əsərlərindən, fikirlərindən də ona verdiyim cavabda istifadə etdim. O mənə Ermənistanla, ermənilərlə bağlı çox material göndərir. Şübhəsiz, mən onun göndərdiyi saxta sənədlərlə bağlı öz fikrimi kəskin şəkildə bildirirəm və onların saxtakar, qondarma tarix yaradıcısı olduqlarını deyirəm. Həmin qadın məni bununla təxribata çəkmək istəyirdi, lakin buna nail ola bilmədi. Bu xəritə tamamilə saxtadır və erməni yalanlarının təbliğinə həsr olunub. Bu saxta xəritə sosial şəbəkədə yayıldıqdan sonra ermənilər özləri də o xəritəyə həddən artıq mənfi rəylər bildirdilər, onlar yazdıqları şərhlərdə bu xəritəni lağ obyektinə çeviriblər, ona ironiya ilə yanaşırlar. Hətta lağ edirlər ki, niyə Avstriyanı, başqa ölkələri də "qədim Ermənistan ərazisi" kimi xəritəyə salmamısınız. Ermənistanın və xaricdəki erməni diasporunun ermənilərlə bağlı saxta materiallar, xəritələr çap edib yaymasını ciddi şəkildə tənqid edən, bu saxtakarlıqlarla razılaşmayan ermənilər də çoxdur. Onlar qondarma tarixlə barışmırlar. Ermənilər bu saxta xəritədə Adəmin, Həvvanın, Nuhun, digər bu qəbildən olan şəxslərin Ermənistanla bağlı olduqlarını iddia edirlər. Əslində isə tarixi faktlar və həqiqətlər erməni yalanlarının əksini üzə çıxarır".

*"...kəskin fikirlər yazdıqdan sonra Fransadakı erməni diasporu Lalanın "Facebook" səhifəsini bağlayıb"*

İ.Tanrıverdinin sözlərinə görə, bu saxta xəritənin fotosunu ona göndərən L.Nakobyandan son günlər bir xəbər yoxdur.

"L.Nakobyanın məni təxribata çəkmək üçün göndərdiyi həmin xəritə sosial şəbəkədə yayıldıqdan və geniş müzakirə edildikdən, ermənilər bu saxta xəritə ilə bağlı kəskin fikirləri yazdıqdan sonra Fransadakı erməni diasporu Lalanın "Facebook" səhifəsini bağlayıb" - deyə bildirən İ.Tanrıverdinin sözlərinə görə, onun özündən isə hər hansı bir xəbər yoxdur.

**İ.Tanrıverdi qeyd etdi ki, zaman-zaman ermənilər belə yalanlar yaymaqla özlərinin qondarma tarixlərini təbliğ etmək, tanıtmaq istəyirlər, amma onlar buna nail olmayacaqlar. Müsahibimiz hesab edir ki, bu gün ermənilər arasında erməni alimlərinin saxtakarlıqlarından bezən, onların yalanlarını ifşa edən kifayət qədər insan var.**

***İradə SARIYEVA***

# Azərbaycanın Ermənistana "faşizmə rəğbət" zərbəsi öldürücü effekt verməyə başlayır...

**Ermənistanda faşizmə bəslənən sevginin Azərbaycan tərəfindən ifşa olunması, bu ölkədə həmçinin antisemitizmə rəğbət xüsusunda baş verənlərin də diqqət mərkəzinə gətirilməsi düşmən ölkədə böyük təşvişlə qarşılanır.**

Erməni faşizminə Prezident İlham Əliyevin Simon Vizental Mərkəzinin həmtəsisçisi və sədr müavini, yəhudi din xadimi Rabbi Abraham Kuper və ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri, yevangelist din xadimi Conni Murlə görüşündə yenidən toxunması da Ermənistanın narahatlığını əhəmiyyətli dərəcədə artırıb.

Xatırladaq ki, bu görüş zamanı dövlət başçısı Ermənistanın monoetnik ölkə olmasına da diqqət yetirib: "Azərbaycan çoxkonfessiyalı, multietnik ölkədir, Ermənistan isə monoetnik ölkədir. Bütün digər etnik qrupların nümayəndələri qovulmuşdur. Eşitmişəm ki, Ermənistanda guya yəhudi icmasının rəhbəri var, lakin onun Karapetyan və ya Varapetyan kimi bir adı var. Orada yəhudilər yoxdur, azərbaycanlılar yoxdur". Rabbi Abraham Kuper də bu fonda diqqətə çatdırıb ki, orada antisemitizm var.

Məsələ ilə bağlı Prezident İlham Əliyev bildirib: "Bəli, əlbəttə ki, antisemitizm var. Bilmirəm, sizin bu barədə məlumatınız var, ya yox. Bu ilin oktyabr ayında keçmiş Sovet İttifaqı respublikalarının rəhbərlərinin görüşdüyü Aşqabad şəhərində keçirilən MDB Sammiti çərçivəsində mövzulardan biri İkinci Dünya müharibəsində Qələbənin 75-ci ildönümünün qeyd olunması ilə bağlı idi və mən söz alaraq dedim ki, Azərbaycan və MDB-yə üzv olan digər ölkələr faşizmin pislənməsi ilə bağlı ortaq mövqedən çıxış edirlər. Nasistlərin qəhrəmanlaşdırılması haqqında danışarkən mən dedim, təəssüf ki, bizim bölgədə, MDB məkanında faşistləri tərənnüm edən bir ölkə var. Mən faşistlərə xidmət edən, Ermənistan hökuməti tərəfindən şərəfinə 6 metr hündürlüyündə abidə ucaldılmış Qaregin Ter-Arutunyanın adını çəkdim. O, faşist Almaniyası, müharibə vaxtında "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur" ifadəsini işlədən bir şəxs idi və bu şəxsin müxtəlif millətlərin, o cümlədən yəhudilərin və digər insanların qətlində əli olub… Qələbənin 75-ci ildönümü ərəfəsində biz İrəvanın mərkəzində bu abidənin olmasına necə dözə bilərik? İndi onlar - mən mətbuatdan eşitmişəm - Bolqarıstanda abidə tikməyə çalışırlar. Onlar birini Rusiyanın Armavir şəhərində ucaldıblar. Çox cəsur bir insan gəlib onun üstünə qara boya töküb və indi erməni diasporu ona hücum edir. Onlar faşisti müdafiə edirlər. Ona görə də, əlbəttə ki, biz ümid edirik dünyadakı yəhudi icmaları bizim səsimizə səs verəcək və Ermənistan hökumətini bu abidəni sökməyə məcbur edəcəklər". Rabbi Abraham Kuper də bildirir ki, Ermənistanın mövqeyi qəbuledilməzdir və bu ölkədə nasistlərin silahdaşlarına, kütləvi qırğın törədənlərə abidələr ucaldılır.



Bütün bunlarla bağlı Ermənistanın "armenianreport" portalında Razmik Akopcanyan yazır ki, Azərbaycan faşizm məsələsində artıq Ermənistana dəqiq və sistemli hücumlar edir: "Azərbaycan prezidenti Rabbi Abraham Kuper ilə görüşündə Njde məsələsinə xüsusi olaraq toxundu. Azərbaycan bu fonda Ermənistana faşizm məsələsində dəqiq, sistemli hücumlar edir. Həm də görünən budur ki, bu məsələdə yəhudi lobbisinin gücündən istifadə etməyə də çalışır. Ermənistan hakimiyyəti isə bunların qarşısında sadəcə susqunluq nümayiş etdirir. Azərbaycan isə fəaliyyətini davam etdirir. Ermənistanda buna qarşı çıxa bilən qüvvə yoxdur. Əksinə, Azərbaycanın gedişlərindən sonra Rusiyada da bu məsələyə diqqət artıb. Bəziləri Ermənistan hökumətinin Rusiyanın İrəvandakı səfirliyi qarşısında aksiyalar təşkil edəcəyini gözləsə də, bu baş vermədi. Amma baxın Azərbaycan necə fəaliyyət göstərir. Burada Qarabağ müharibəsində iştirak edən Albert Aqarunova heykəl qoyuldu və onun açılışında İsrailin Azərbaycandakı səfiri də iştirak etdi". Portal yazır ki, belə vəziyyətdə Njde ilə bağlı olayların da xüsusi qabardılması yəhudi lobbisinin Azərbaycanın yanında yer almasını şərtləndirir. Eyni zamanda, Rusiyada baş verənlər də Ermənistanın lehinə olmayan hal kimi dəyərləndirilir.

Xatırladaq ki, bu günlərdə Rusiyanın Krasnodar diyarının Armavir şəhərində yerli qanunvericilik orqanının deputatı Aleksey Vinoqradov Qaregin Njdenin xatirə lövhəsinin üstünü qara rənglə boyayıb. Şəhərin erməni diasporunun və Ermənistanın Rusiyadakı səfirliyinin etirazlarına baxmayaraq, lövhə bərpa edilməyib. Aleksey Vinoqradov özü isə dəfələrlə bildirib ki, Üçüncü Reyxlə əməkdaşlığda adı hallanan şəxslərin xatirəsinin əbədiləşməsi alman qəsbkarlarına qarşı müharibədə qanını tökmüş bir xalq üçün təhqirdir. Armavir əhalisi də uzun illərdir Njdenin xatirə lövhəsini sökməyi tələb edir, yerli hakimiyyət orqanlarına, prokurorluğa kollektiv ərizələr yazır. Hakimiyyət orqanları isə guya Rusiya Dövlət Arxivindən Njde barədə sənədlər tələb etdiklərini, lakin hələ cavab almadıqlarını bəhanə gətirirlər. Nəhayət, bu məsələni deputat Aleksey Vinoqradov özünəməxsus şəkildə həll edib.

Rusiya Kommunist Partiyasının Krasnodar bölməsinin katibi Aleksandr Safronov özünün sosial şəbəkə hesabında yazır ki, faşizmlə əməkdaşlıqda adı hallanan şəxslərin xatirəsinin əbədiləşdirilməsinə heç vəchlə yol vermək olmaz. Armavir hakimiyyət orqanlarının Njdenin xatirə lövhəsinin quraşdırılmasına icazə verməsi həqiqətən də təəccüb doğurur. Rusiya bütün dünyada faşist havadarlarına bərəət qazandırılmasına qarşı mübarizə aparır. Elə bu il noyabrın əvvəllərində BMT Baş Assambleyası Rusiyanın irəli sürdüyü "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrıseçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə mübarizə" adlı qətnaməni təsdiqləyib. Qətnamədə dövlətlərə Böyük Vətən Müharibəsinin nəticələrinə yenidən baxılmasına və bu müharibə dövründə törədilən cinayətlərin inkar edilməsinə qarşı tədbirlər görmək tövsiyə olunur. Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov bu mənada Vinoqradovun tamamilə doğru addım atdığını vurğulayıb. O, Njdenin nasist rejiminin əməkdaşı olduğuna şübhə etmir və Armavirdə Njdenin xatirəsinin əbədiləşdirilməsini böyük məsuliyyətsizlik sayır.

**Xatırladaq ki, Njde Böyük Vətən Müharibəsi illərində nasional sosialistlərin erməni legionunun yaradıcısı olub. O, Şimali Qafqazda Sovet ordusuna qarşı vuruşub. 1948-ci ildə nasist Almaniyasına havadarlıqda təqsirləndirilərək 25 il müddətinə azadlıqdan məhrum edilib və Vladimir həbsxanasında ölüb. Njdenin satqın olması, nasist Almaniyasına qulluq etməsi artıq bir çox müstəqil tarixçilər tərəfindən tarixi faktlarla sübut olunub. Amma Ermənistan bu ideologiyaya sadiq olduğunu göstərməyə davam edir.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyanın Qarabağ siyasətinə (pozuculuğuna) qarşı Ermənistanda üsyan başlanır

**Bu gün işğalçı Ermənistanda böyük narahatlıqla qarşılanan məsələlərdən biri də Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqların dalana dirənməsi və bunun savaş ehtimalını əhəmiyyətli dərəcədə artırmasıdır. Maraqlıdır ki, hadisələrin məhz bu səpkidə inkişafına görə Ermənistanda baş nazir Nikol Paşinyana yönəlik ittihamlar artır.**

Ümumiyyətlə, belə görünür ki, Paşinyan və komandasının reallıqdan uzaq Qarabağ siyasətindən Ermənistanın özündə də narazılıq artır. Çünki bu siyasətin Ermənistanı hara apardığını düşmən ölkədə də aydın sezirlər.

Hələlik isə görünən budur ki, Paşinyanın Ermənistanı müharibəyə sürükləyən siyasəti düşmən ölkədə böyük narazılığa yol açıb. Elə bu səbəbdən Qarabağ siyasətinə görə Paşinyana qarşı səslənən ittihamların sayı sürətlə artır. Ermənistan parlamentinin keçmiş deputatı Aqvan Vardanyan Nikol Paşinyanın Qarabağ məsələsində ziddiyyətli bəyanatlar verməsinin ölkəsinə fəlakətdən başqa heç nə vəd etmədiyini bəyan edib: "Biz əslində, əvvəlki mövqelərimizdə güzəştlər etdik və indi danışıqlar dalana dirənib. Bu isə Ermənistanı xeyli güclənən Azərbaycanla təhlükəli savaşa sürükləyir. Amma görünən budur ki, Paşinyan bunun fərqində deyil".

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru David Şahnazaryan da həyəcan təbili çalanlar sırasındadır: "Paşinyanın siyasəti üzündən dövlətimizin inkişafının yəqin ki, ən təhlükəli mərhələsindəyik. Mənim fikrimcə, belə təhlükəli mərhələ olmayıb". O qeyd edib ki, onu münasibət bildirməyə vadar edən məhz həyəcanlı narahatlıq səviyyəsidir. Şahnazaryanın sözlərinə görə, son 1,5-2 ildə mövcud olan problemlər daha da gərginləşib və xarici, regional siyasət baxımından yeni növ təhlükəli təhdidlər olmaqla onlara yeniləri əlavə edilib. O, bu fonda Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, mövcud hakimiyyətin bir çox ziddiyyətli açıqlamalar verdiyini vurğulayıb: "2018-ci ilin may ayına qədər danışıqlar masasında yalnız bir gündəm maddəsi vardı. Bu, təmas xəttində baş verən hadisələr üzrə beynəlxalq həmsədrlərin təşəbbüsləri, xüsusi avadanlıqların yerləşdirilməsi, ATƏT-in Minsk Qrupunun tərkibinin genişləndirilməsi və atəşkəs rejiminin pozulması üzrə beynəlxalq mexanizmlərin yaradılmasından ibarət idi. Bu, təmas xətti boyunca beynəlxalq elementlər yaratmaq məsələsi idi. Tənzimləmə baxımından vəziyyəti, beynəlxalq birliyin Qarabağ münaqişəsinə münasibətini əhəmiyyətli dərəcədə dəyişdirən "Madrid prinsipləri" sənədi vardı. Amma indi vəziyyət dəyişib". Şahnazaryan indiki Ermənistan hakimiyyətinin həyata keçirdiyi siyasətə diqqət çəkərək qeyd edib: "Birincisi, mövcud hakimiyyət ümumiyyətlə üç "Madrid prinsipi" - ərazi bütövlüyü, öz müqəddəratını təyinetmə, güc və güc təhdidinin istisna edilməsi barədə sanki danışmaq istəmir. Əslində, imtina edirlər. Danışıqlar prosesinin hakimiyyətin ziddiyyətli açıqlamaları və mövqeləri üzündən dalana dirəndiyi aydın şəkildə görünür. Ermənistan hakimiyyətinin ziddiyyətli bəyanatları Qarabağa dair danışıqlar prosesini dalana dirəyib. Bu gün Azərbaycan və beynəlxalq ictimaiyyət eyni mövqedən çıxış edir, Ermənistan isə başqa mövqedən". Paşinyanın Qarabağa dair mövqeyini və ziddiyətli bəyanatlarını kəskin tənqid edən Şahnazaryan deyir ki, belə vəziyyət Ermənistan üçün çox ciddi təhdiddir: "Və Azərbaycan artıq gələcək hərbi əməliyyatlara haqq qazandırmaq üçün ciddi arqumentlər əldə edib. Bütün bunlar ona gətirib çıxara bilər ki, hansısa beynəlxalq tədbirdə danışıqlar masasına bizim üçün qəbuledilməz sənəd qoyula bilər. Bu sənədə biz maksimum veto qoya və "Lissabon 2" əldə edə bilərik. İstisna deyil ki, belə cəhd tezliklə Bratislavada, ATƏT xarici işlər nazirlərinin görüşündə ediləcək".

Daha bir erməni siyasi ekspert Hasmik Vardanyan da ölkəsinin təhlükəli bir mərhələyə daxil olduğunu vurğulayır: "Paşinyan Qarabağ münaqişəsi haqqında bəyanatları ilə Ermənistan üçün ciddi təhdid yaradıb. Halbuki, bir il əvvəl bu onun tərəfindən prioritet kimi elan olunub. Bir il əvvəl Paşinyanın danışıqlar masasında Qarabağı təmsil edə bilməyəcəyi ilə bağlı iddiaları müəyyən qədər beynəlxalq ictimaiyyət, xüsusilə də vasitəçilər üçün anlaşılan ola bilərdisə, bu bir il ərzində etdiyi bəyanatlarla o, yaranmış fürsəti nəinki aradan qaldırıb, həmçinin Qarabağın danışıqlar masasına qaytarılması perspektivinə ciddi zərbə vurub. "Qarabağ Ermənistandır, vəssalam" bəyanatı ilə Paşinyan hər şeyi korladı". O qeyd edib ki, bəzi daxili problemləri həll etmək üçün verilən bu bəyanatlar Qarabağın danışıqlar masasına qayıtması ehtimalını azaltmaqla yanaşı, erməni tərəfinin danışıqlar prosesində mövqelərini də çətinləşdirir: "Ən təhlükəlisi isə budur ki, bununla Azərbaycanın savaşa başlamasına əsas yaradılır. Bəs görəsən, Paşinyan 2016-cı ilin aprelində baş verənlərdən dərs çıxarmayıb ki, belə reallıqdan uzan siyasət yürüdür?". Başqa bir erməni politoloq Armen Dulyanın sözləri də bu mənada xüsusi diqqət cəlb edir: "Təcrübə göstərir ki, əsassız bəyanatlar əslində heç bir nəticə vermir və Qarabağ probleminin həlli işində heç nəyi dəyişmir". Dulyanın sözlərinə görə, müharibə yenidən başlasa, 1990-cı illərin birinci yarısında baş vermiş müharibəyə bənzəməyəcək. "Müharibə çətin olacaq, nəticələri isə proqnozlaşdırıla bilən olmayacaq. Azərbaycanın xeyli güclənməsini, onu müdafiə edənlərin sayının artmasını nəzərə almaq lazımdır".

Bütün bu qeyd edilənlər çox aydın göstərir ki, Paşinyanın əsassız Qarabağ siyasəti Ermənistanda böyük qorxuya səbəb olmaqla yanaşı, həm də ciddi narazılıqla qarşılanır. Bütün bunlar isə səbəbsiz deyil. Ən azı o baxımdan ki, ötən dövr ərzində Azərbaycanın kifayət qədər gücləndiyini Ermənistanda da aydın görənlər az deyil. Məsələn, ermənilərə də yaxşı məlumdur ki, hazırda Azərbaycanın dövlət büdcəsi və hərbi xərcləri Ermənistanınkından dəfələrlə çoxdur. Azərbaycanın 2020-ci ilin dövlət büdcəsinin hərbi xərcləri 3 milyard dollara yaxındır. Ermənistanda isə bu rəqəm heç 600 milyon dollara da çatmır. Bu rəqəmlərə baxdıqda Ermənistanın müharibə başlandığı anda qarşılaşa biləcəyi nəticəni aydın görmək mümkündür. Azərbaycanın müdafiə üçün nəzərdə tutulmuş xərcləri Ermənistanla müqayisədə təxminən beş dəfə artıqdır. Bu fonda ordunun maddi texniki təminatı sarıdan da fərqlər böyükdür. Azərbaycan ordusu hazırda dünyanın ən güclü 50 ordusu sırasındadır. Ermənistan ordusu isə bu siyahıda ən yaxşı halda 96-cı yerdə olub. Ordunun şəxsi heyət sarıdan təminatı da burada az rol oynamır. Məlumdur ki, Azərbaycan əhalisinin sayı artıq 10 milyonu keçib. Yaxın on ildə ölkə əhalisinin sayının 11 milyona çatması gözlənir. Ermənistanda isə əhalinin hələ rəsmi rəqəmlərdə sayı üç milyona belə çatmır. Hazırda bu ölkədə əhalinin kəskin azalması müşahidə edilir. Buna səbəb Ermənistanda hökm sürən iqtisadi-sosial problemlərdir. Erməni gənclərin əksəriyyəti dolanışığın çətinliyi səbəbindən ölkədən qaçmaq məcburiyyətində qalır. İndinin özündə də Ermənistanı tərk edən ermənilərin sayında artım müşahidə edilir. Belə vəziyyətdə işğalçı ölkədə real əhalinin sayı təxminən 1,5 milyon nəfər ətrafındadır. Bu səbəbdən düşmən ölkədə ordunun şəxsi heyət sarıdan təminatı ciddi problem olaraq qalır və ciddi şəkildə əsgər çatışmazlığı hökm sürür. Digər tərəfdən, Ermənistanın beynəlxalq hərbi əməkdaşlığı çox aşağı səviyyədədir. Bu ölkə Litva, Gürcüstan, Rusiya, Hindistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan və İranla hərbi əməkdaşlıq aparır. Amma real əməkdaşlıq yalnız Rusiya ilədir. Hazırda Azərbaycan dünyanın 40-dan çox ölkəsi ilə ikitərəfli əsasda hərbi əməkdaşlıq həyata keçirir. Azərbaycan bu fonda müxtəlif ölkələrdən ən müafir hərbi texnikanın alışını həyata keçirir.

Diplomatik müstəvidə aparılan işlər nəticəsində də Ermənistan beynəlxalq miqyasda küncə sıxışdırılmış vəziyyətdədir. Bu mənada, Dağlıq Qarabağdakı separatçı rejimin sabiq "müdafiə naziri" Samvel Babayan etiraf edir ki, Qarabağda müharibə başlasa, heç bir fövqəldövlət Ermənistana kömək etməyəcək. Babayana görə, Ermənistan Qarabağ münaqişəsinin həlli üçün siyasi, diplomatik fürsəti itirib. Yaranmış durumda Babayan Qarabağda müharibənin başlanmasını tam mümkün hesab edir. Onun sözlərinə görə, Azərbaycanı müharibəni başlamağa qoymayan səbəblər artıq Paşinyan iqtidarı sayəsində aradan qalxıb:"Ermənistanın hər gün müharibəyə hazır olmadığı da faktdır. Digər tərəfdən, bu gün əsas diqqət dövlətin iqtisadi cəhətdən güclənməsinə nail olmağa yönəlib.

Çünki qeyd etdiyim kimi, Azərbaycan və Ermənistan arasında yeni müharibə baş qaldırsa, heç bir fövqəldövlət Ermənistanın tərəfində olmayacaq. Azərbaycanla isə vəziyyət fərqlidir. Onunla iqtisadi əməkdaşlığını dərinləşdirən ölkələr savaş halında da Azərbaycanın yanında olacaqlar". Bu fikirlərdən də göründüyü kimi, Azərbaycanın sürətli iqtisadi inkiaşfı və Ermənistandan iqtisadi gücünə görə dəfələrlə böyük olması da düşmən ölkənin ən böyük zəifliklərindən biri qismində çıxış edir. Digər bütün mühüm parametrlər üzrə də Azərbaycan Ermənistandan çox irəlidədir. Məhz bunlar fonunda Paşinyanın Qarabağ siyasətində absurd mövqe sərgiləməsi və bununla savaş ehtimalını artırması artıq Ermənistanda da məntiqsiz və əsassız siyasət kimi dəyərləndirilir. Çünki bu halda güclü Azərbaycanın asanlıqla Ermənistanı əzəcəyini düşmən ölkədə bilənlərin sayı az deyil.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Müsavatçı "mühacir"lərlə bağlı ölkə gündəmini zəbt edən rüsvayçı xəbərlərə daha bir ciddi qurumdan etiraz gəlib. Belə ki, Babək "SİRAB" ASC-nin İdarə Heyətinin sədri Namiq Novruzov dırnaqarası saytlarda "SİRAB"a qarşı aparılan çirkin kampaniyaya kəskin etirazını bildirib. Redaksiyamıza göndərilən etiraz məktubunu diqqətinizə çatdırırıq:**

# Xaricdəki bəzi radikal mühacir azərbaycanlıların yeni "əsəri" - Bir oxşar adlı Avropa şirkətinin əməlləri Naxçıvandakı məşhur "Sirab" şirkətinin adına necə yazıldı...

Bildiyimiz kimi, bir müddət əvvəl özünü "müsavatçı mühacir jurnalist" kimi təqdim edən Laçın Məmişov tərəfindən "Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbər və indiki rəhbəri Arif Hacılının "SİRAB" şirkəti tərəfindən maliyyələşdirilməsi" haqqında əsassız və yalan iddia ortaya atılmışdı. L.Məmişov, özünü "jurnalist" adlandırmasına rəğmən, qeyri-peşəkar bir davranış sərgiləyərək, heç bir araşdırma və dəqiqləşdirmə aparmadan Babək "Sirab" ASC-yə məxsus "SİRAB" mineral sularının foto şəkillərini də öz yalan xəbərinə əlavə etməklə şirkətimizin imicinə yönəlik çirkin mahiyyətli xəbərlərin yayılmasına rəvac vermişdi. Hansı ki, ucuz sensasiya axtaran bəzi media qurumları üçün bu bir növ göydəndüşmə olmuş və yuxarıda qeyd olunan başlıqlı iftira bir sıra qeyri-populyar saytlarda yayımlanmışdı. Babək "Sirab" ASC olaraq, məsələ ilə bağlı apardığımız araşdırma nəticəsində həmin məlumatın saxta və yalan olduğu ifşa edildi. Bəlli oldu ki, əslində söhbət Babək "SİRAB" ASC-dən yox, Avropada qeydiyyatdan keçirilmiş və orada da fəaliyyət göstərən "Sirab Europa Gmbh" adlı bir daşımacılıq şirkətindən gedir. Təbii ki, bunu özünü "siyasi mühacir" adlandıran Laçın Məmişov da bilməmiş deyildi. Çünki onun sadəcə "Sirab şirkəti" ifadəsini işlətməsi, "Sirab" suyunun da şəklini öz yalanına əlavə edərək diqqətləri Babək "SİRAB" ASC-yə yönəltməsini "texniki xəta" kimi dəyərləndirmək olduqca çətindir. Üstəlik "jurnalist" olduğunu iddia edən bir adam bilməli idi ki, hər hansı bir qurumdan bəhs edirsə, çaşqınlıq yaratmamaq adına həmin təşkilatın adını tam şəkildə demək və ya yazmaq lazımdır. Lakin gördüyümüz kimi, həmin şəxs məhz qarayaxma və böhtan, çaşqınlıq yaratmaq yolunu seçib. Təbii ki, yalanın ömrü az olar və ölkənin 30-dan artıq nüfuzlu və sayğıdəyər qəzet və saytları tərəfindən əsl həqiqət yayımlandı, "SİRAB"a atılan iftira ifşa edildi, cəmiyyətdə süni şəkildə yaradılmış çaşqınlığa son qoyuldu. Azərbaycan ictimaiyyətinə agah oldu ki, Avropada qeydiyyatdan keçmiş "Sirab Europa Gmbh" adlı daşımacılıqla məşğul olan bu şirkətin Naxçıvanda qeydiyyatdan keçmiş və ölkəmizdə "SİRAB" mineral sularının istehsalı və satışı sahəsində fəaliyyət göstərən Babək "Sirab" ASC ilə yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur. Lakin bu günlərdə Yafəz Əkrəmoğlu adlı başqa bir "mühacir jurnalist" bu mövzunu yenidən gündəmə gətirib. Sosial şəbəkələrdə paylaşdığı statusunda "Almaniyada baş ver?n son hadis?l?rd?n sonra Az?rbaycanda ?n çox maddi ziyan gör?n Arif Hacılı v? Vasif Talıbovdur" fikrini səsləndirən, Babək "SİRAB" ASC-nin adını da ziddiyətli fikirlərlə dolu yazısında hallandıran bu adamın yazdıqlarını oxuduqdan sonra bir daha əmin olursan ki, bu adamlar Azərbaycanın beynəlxalq arenada günü-gündən güclənən imicini və nüfuzunu ləkələmək üçün nəinki dövlətimizə və onun rəhbərlərinə, Azərbaycan adını ləyaqətlə təmsil edən bütün insanlara və qurumlara, hətta siyasətlə bağlılığı olmayan özəl şirkətlərə belə çirkab atmağa hazırdırlar. Apardıqları çirkin Anti-Azərbaycan və antimilli kampaniyalara Azərbaycan adını iyirmidən artıq ölkədə qürurla təmsil edən Babək "SİRAB" ASC-nin də adını qarışdırmaqları göstərir ki, müxtəlif bəhanələrlə Azərbaycanı tərk edərək Qərb ölkələrində peyda olan və özlərini "siyasi mühacir" adlandıran Laçın Məmişov, Yafəz Əkrəmoğlu kimilərin əslində siyasi mühacirliklə heç bir əlaqəsi yoxdur. Onlar sadəcə, öz "isti yerləri"ni daha da bərkitmək üçün bütün çirkin vasitələrdən istifadə etməyə, istənilən şəxsə və quruma çirkab atmağa hazırdırlar. Bu kimi qarayaxmaların son zamanlar intensivləşməsini də təsadüfi saymaq olmaz. Ölkədə aparılan islahatlar və quruculuq işləri, iş adamları və sahibkarlara geniş dövlət dəstəyinin təmin olunması, eləcə də Naxçıvan Muxtar Respublikasının yüksək inkişafından narahat olan bu insanların ölkə gündəminə oturmuş "siyasi mühacir" qalmaqalında Babək "SİRAB" ASC-nin adını hallandırmaları iftira və böhtandan, "SİRAB" şirkətinə və onun kollektivinə qarşı "mənəvi terror"dan başqa bir şey deyil. Babək "SİRAB" ASC olaraq, qətiyyətlə bəyan edirik ki, "Sirab Europa Gmhb" adlı şirkətin "SİRAB" şirkətinə zərrə qədər də aidiyyəti yoxdur. Həmçinin "SİRAB" ASC-nin Azərbaycandan kənarda rəsmi və ya qeyri-rəsmi hər hansı filialı, nümayəndəliyi, törəmə şirkəti də yoxdur. Hesab edirik ki, bu mövzunun təkrar-təkrar eyni şəxslər və media qurumları tərəfindən gündəmə gətirilməsi tək şirkətimizə deyil, eləcə də Azərbaycana yönəlik qərəzin və məkrli kampaniyanın tərkib hissəsidir. Bu cür qeyri-dəqiq, iftira və böhtan dolu xəbəri yayan bəzi media quruluşlarının da bir müddət əvvəl təkzib vermələrinə rəğmən yenidən bu mövzuya qayıtmaları sübut edir ki, onlar da adları çəkilən şəxslərin apardıqları çirkin qarayaxma kampaniyasının iştirakçıları və dəstəkçiləridir.

Hesab edirik ki, müvafiq dövlət qurumları bu məsələyə diqqət yetirəcək, bu yöndə lazımi tədbirləri görəcəklər. Avropada məskunlaşmış sözügedən qaragüruhçu qüvvələrlə eyni çirkin məqsəd və mərama xidmət edən "saytlar"ın bu qarayaxma kampaniyasında Naxçıvan Muxtar Respublikasının rəhbərliyinin adının hallandırılmasını, məsələyə qeyri - peşəkar yanaşaraq, KİV haqqında qanunun tələblərinə məhəl qoymadan birtərəfli qaydada xəbər yayımlamasını və nəticə etibarilə ictimaiyyətdə Muxtar Respublika rəhbərliyi barəsində rəy formalaşdırmaq, şirkətimizə və markamıza yönəlik əsassız çaşqınlıq yaratmasını qətiyyətlə pisləyirik. Maxçıvan MR rəhbərliyinə və Babək "SİRAB" ASC-yə, eləcə də "SİRAB" markasına yönəlik bu cür böhtan dolu informasiyanı yayan xəbər saytlarından əsassız yalanlarını düzəldərək təkzib vermələrini tələb edir, bir daha bu kimi hallara yol verəcəkləri təqdirdə hüquqi müstəvidə bütün zəruri addımları atacağımızı bəyan edirik.

***Baki-xeber.com***

# ABŞ və Türkiyənin S-400 savaşı sonda Azərbaycanın xeyrinə həll oluna bilər...

**Bu günlərdə Rəcəb Tayyib Ərdoğanın ABŞ-a səfəri zamanı Rusiyanın S-400 sistemlərinin taleyi məsələsini həll etmək mümkün olmayıb. Bunu ABŞ Prezidenti Donald Tramp da təsdiq edib: "Biz bu barədə danışdıq, gələcəkdə də bu barədə danışacağıq və ümid edirəm ki, məsələni həll edə biləcəyik".**



Görünür, bu mövzu yaxın vaxtlarda Ankara və Vaşinqton üçün ciddi problem olaraq qalacaq.

Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti İlya Kramnik hesab edir ki, Ankara, istənilən halda, problemin həllini tapmağa çalışacaq, çünki Qərblə hərbi sahədə münasibətləri tamamilə pozmağı özünə rəva bilməz: "Türkiyə öz istehsalı olan pilotsuz uçuş aparatları və gəmilər üçün yüksək dəqiqlikli döyüş sursatları, aqreqatların tədarükü məsələsində ABŞ və Aİ-dən asılıdır".

Bu arada Rusiya mətbuatı yazır ki, S-400 raketləri Azərbaycana verilə bilər. Strategiyalar və Texnologiyaların Təhlili Mərkəzinin direktor müavini Konstantin Makienko komplekslərin üçüncü tərəfə, yəni Azərbaycana verilməsini mümkün sayır. O bununla bağlı müqayisə də aparıb. Tarixdə bənzər presedent olub: 1996-cı ildə Rusiya Kiprə iki divizion S-300 verilməsi barədə müqavilə bağladı, ancaq Türkiyənin tənqidlərindən sonra komplekslər Yunanıstana verildi.

## *Azad İsazadə: "...S-400-lərin Azərbaycana veriləcəyi ilə bağlı deyilənlər reallığa söykənmir"*

Maraqlıdır, ABŞ-ın etiraz etməsi fonunda S-400 raketləri Türkiyəyə deyil, Azərbaycana verilə bilərmi? Rusiya mətbuatının bununla bağlı iddiaları nə dərəcədə realdır?

Məsələyə münasibət bildirən hərbi ekspert Azad İsazadənin fikrincə, Türkiyəyə verilən S-400-lərin Azərbaycana veriləcəyi ilə bağlı deyilənlər reallığa söykənmir: "Rusiya mətbuatının Kiprlə bağlı müqayisəsi düzgün deyil. Ona görə ki, 1996-cı ildə Kiprə S-300 raketləri vəd edilsə də, həmin raketlər bu ölkəyə verilmədi. Ancaq S-400-lərlə bağlı məsələ fərqlidir. Məsələ ondadır ki, Rusiya ilə Türkiyə arasında konkret müqavilə bağlanıb. Müqavilə çərçivəsində S-400-lərin birinci partiyası Türkiyəyə verilib. Ancaq 1996-cı ildə Rusiya S-300 raketlərini Kiprə vermədi. Baxmayaraq ki, vermək istəyirdi. Türkiyənin etirazından sonra həmin raketlər Yunanıstana verildi. Ona görə də situasiyalar fərqlidir. Digər tərəfdən, Rusiya S-400-lərin ikinci partiyasını verən zaman təkcə bu raketləri deyil, bu raket komplekslərinin texnologiyalarını da verməlidir. Ancaq məlumatlara görə, Rusiya S-400-lərin texnologiyalarını Türkiyəyə vermək istəmir. Türkiyə də buna etiraz edir. Söhbət raket komplekslərindən getmir. Rusiya ikinci partiyanı da verməyə hazırdır. Sadəcə, bu raketlərin texnologiyasını vermək istəmir. Türkiyənin məqsədi həm də odur ki, texnologiyalara yiyələnib həmin raketlərin istehsalında iştirak etsin.

*"Həmin raketlərin texnologiyalarının satışı ilə bağlı tərəflər razılığa gəlməsə, o zaman müqavilə pozula bilər"*

Bax, əsas mübahisəli məsələ bununla bağlıdır. Ancaq, nədənsə, Rusiya mətbuatı bu məqamlara toxunmur. Lazım gəlsə, Azərbaycan özü Rusiyadan S-400 raketləri alar.

Buna imkanı da var. Bir məqamı unutmaq olmaz ki, Rusiya Cənubi Qafqaz ölkələrinə silah satanda çalışır pariteti qorusun.

**Birinə bir silah satır, digərinə başqa silah. Düzdür, ABŞ istəmir Türkiyə S-400 raketləri alsın. Ancaq Türkiyə də bu raketlərdən imtina etmək fikrində deyil. Lakin S-400-lərin texnologiyalarının satışı ilə bağlı tərəflər razılığa gəlməsə, o zaman müqavilə pozula bilər".**

***Vidadi ORDAHALLI***

# Təbrizdə nələr baş verir...

**İranda benzinin kəskin bahalaşmasına etiraz olaraq başlayan və bütün ölkəni bürüyən kütləvi nümayişlər təhlükəsizlik qüvvələri ilə toqquşmalarla müşayiət olunur. KİV xəbər verir ki, qəzəbli kütlə polis məntəqələrini, bankları, benzindoldurma məntəqələrini yandırır.**



Bütün ölkə boyu internetə giriş kəskin məhdudlaşdırılıb, mobil rabitə işləmir. Son məlumatlara görə, təhlükəsizlik qüvvələri ilə toqquşmalarda ölənlərin sayı 25-i keçib.

Dini lider Xamneyi bəyan edib ki, ölkəni bürüyən etirazlar İranın düşmənlərinin işidir və onlar benzinin bahalaşmasını bəhanə kimi istifadə ediblər.

İran hökumətinin qərarı ilə bu ölkədə benzinin qiyməti iki dəfə bahalaşıb və təxminən 15 qəpik olub. Habelə adambaşına kvotaya əsasən, güzəştli qiymətə satılan benzinin qiyməti 50 faiz bahalaşıb.

Qeyd edək ki, ABŞ hökuməti İranda benzin qiymətinin artırılmasına etiraz edən aksiyaçıları dəstəklədiyini bəyan edib. İrandakı etirazlarla bağlı Ağ Evin yaydığı bəyanatda deyilir:

"ABŞ özlərinə rəhbərlik etməsi lazım olan, dinc aksiyalar keçirən İran xalqının yanındadır. Etirazçılara qarşı istifadə edilən ölümcül müdaxilə və rabitə kəsintisini qınayırıq".

## *Qabil Hüseynli: "Aksiyaların miqyası genişlənsə, Tehran hakimiyyətinin vəziyyəti heç də yaxşı olmayacaq"*

Qeyd edək ki, İranda benzinin qiymətinin 300% artırılması nəticəsində ötən həftə başlayan etirazlar davam edir. İndiyədək 1000-ə yaxın etirazçı saxlanıb, ölkə miqyasında internet və mobil xətlər əlçatmaz olub.

Politoloq Qabil Hüseynli qəzetimizə bildirdi ki, İranda bu narazılıq gec-tez özünü göstərməli idi: "Əhalinin belə kəskin etiraz etməsi təsadüfi deyil. Çünki söhbət enerji daşıyıcısının qiymətinin birdən-birə 3 dəfə qalxmasından gedir. Vətəndaşlar gözəl anlayırlar ki, bu artım digər qiymətlərə də sirayət edəcək. Ona görə də belə kəskin formada hökumətə etiraz edirlər. Hiss olunur ki, İran hakimiyyəti məcbur qalıb bu addımı atıb. Yoxsa cüzi artımla kifayətlənə bilərdi. Uzun illərdir tətbiq edilən sanksiyalar öz gücünü göstərir. İqtisadiyyatı, demək olar ki, çökmüş hala gələn İran bu artıma məcburən gedir.

Düşünürəm ki, bu aksiyaların miqyası genişlənsə, Tehran hakimiyyətinin vəziyyəti heç də yaxşı olmayacaq".

Q.Hüseynli bildirdi ki, İranda baş verənlər Tehranda rejim dəyişikliyində maraqlı olan qüvvələr tərəfindən böyük maraqla izlənir: "Tramp və Netanyahunun bəyanatları onu sübut etdi ki, İranda baş verənlər Tehranın düşmən saydığı dövlətlər tərəfindən diqqətlə izlənir. Düzdür, bu münasibəti şişirdənlər də var. Ancaq İranda ciddi şəkildə sosial problemlər mövcuddur. İraq, Suriya və Yəməndə baş verənlərə daha çox diqqət ayrıldığından, ölkə iqtisadiyyatında islahatlar dayandırılıb. Sosial sahədə durğunluq hökm sürür, gənclər çoxsaylı problemlə üz-üzədir. Sosial şəbəkələrə tətbiq edilən məhdudiyyətlər də mövcud ifadə azadlığı üçün əlavə maneələr yaradır. 2015-ci il iyulun 15-də imzalanan razılaşmadan sonra aradan qaldırılan sanksiyalar İrana inkişaf üçün yaxşı şans vermişdi, ancaq təəssüf ki, bu da yetərincə qiymətləndirilə bilmədi. Yeni nəsil tamamilə fərqli münasibət ortaya qoyur. Onları dini şüarlarla ac qalmağa məcbur etmək mümkün deyil. Bir sözlə, bu, İran hakimiyyəti üçün ciddi siqnal sayılır".

***Məhəmmədəli QƏRİBLİ***

# 60-dan çox iri tədbir və nağdsız ödənişlərin faizi 74-dən 40-a düşəcək - Azərbaycan möcüzəsi...

**Aparılan hesablamalar göstərir ki, qarşıdakı 3 il ərzində dünyada nağdsız əməliyyatların həcmi 1 trilyon dolları keçəcək. Bu xüsusda "Business Insider Intelligence" nəşri yazır ki, bu, mobil və rəqəmsal texnologiyaların inkişafı sayəsində mümkün olacaq.**

Azərbaycanda da sözügedən istiqamətdə texnologiyaların inkişafı fonunda nağdsız ödənişlərin miqdarının əhəmiyyətli dərəcədə artması gözlənir.

Mərkəzi Bank da bildirir ki, rəqəmsal ödənişlərin genişlənməsi üzrə dövlət proqramının icrası nəticəsində nağdsız dövriyyənin həcmi 14 milyard manatadək artacaq. Xatırladaq ki, bu proqram 2018-2020-ci illəri əhatə edir və bu istiqamətdə ölkədə 60-dan çox tədbirin keçirilməsi nəzərdə tutulub. Dövlət proqramının icrası nəticəsində nağd dövriyyənin həcminin74%-dən 40%-dək endirilməsi proqnozlaşdırılır. Amma o da faktdır ki, reallıqda bu istiqamətdə hələ zəruri addımlar atılmayıb. Yəni rəqəmsal ödənişlərin texnologiyalar, mobil telefonlar vastəsilə həyata keçirilməsi azdır. Hazırda ölkəmizdə nağdsız əməliyyatlar daha çox pos-terminallar vasitəsilə həyata keçirilir. Amma bu sahədə də vəziyyəti ürəkaçan saymaq olmaz. Əvvəla, belə cihazların sayına artım tempi istənilən səviyyədə deyil. Düzdü, cari ilin 3-cü rübündə pos-terminalların sayı 1381 ədəd artaraq 64 min 777 ədədə çatıb. İyun ayının sonunda POS-terminalların sayı 63 min 396 ədədədək düşmüşdü. Amma Mərkəzi Bankın statistikasına görə, hələ də ticarət və xidmət obyektlərində quraşdırılmış pos-terminalların sayı 2018-ci ilin sonu ilə müqayisədə 1333 ədəd, 2015-ci ilin sonu ilə müqayisədə isə 15 min 524 ədəd azdır. 2015-ci ilin sonunda ticarət və xidmət obyektlərində quraşdırılmış pos-terminalların sayı 80 min 301 ədədə çatmışdı. Sonradan sahibkarlar pos-terminallardan imtina etməyə başlamışdılar. Halbuki, hökumətin əsas məqsədi pos-terminalların sayının və beləliklə, nağdsız ödənişlərin miqdarının artırılmasıdır. Bu hal "kölgə iqtisadiyyatı"na da ciddi zərbə sayılır. Digər tərəfdən məlumdur ki, oktyabr ayının əvvəlinədək ölkədəki iri ticarət mərkəzləri, şadlıq evləri, şəbəkə marketlər, yanacaqdoldurma məntəqələri avtomobil və mebel satışı mərkəzləri elektron kassa sisteminə keçməlidir. Azərbaycanda bu kimi obyektlərin sayının on minlərlə olduğunu nəzərə alsaq, pos-terminalların sayının 1381 ədəd artması zəif artımdır.



Daha bir məqam isə plastik kartlarla bağlıdır. Ölkədə belə kartların artmına da pos-terminalların sayı uyğun deyil və çox azdır. 2019-cu il sentyabrın sonu üçün dövriyyədə olan bank kartlarının sayı 7,266 milyona çatıb, bu isə ötən il oktyabrın əvvəlindəki göstəricidən 909 min ədəd çoxdur. Bu ilin yanvar-oktyabr aylarında qeydə alınmış kart əməliyyatlarının həcmi 1,911 milyard manata çatıb, bu isə ötənilki göstəricilərdən 35,4% çoxdur. Lakin bank kartları ilə dövriyyənin artması əhalinin müxtəlif xidmət və məhsullara görə ödənişdə plastik pulqabılarıdan istifadəyə keçdiyi anlamına gəlmir. İl ərzində bank kartları ilə ticarət mərkəzlərində ödəniş edilməsi cəmi 10% artıb. Bunun səbəbi vətəndaşların görünməyən ödənişlərə etimadsızlığı və bir çox ticarət obyektlərinin Pos-terminaldan istifadə etmək istəməməsidir.

Nəticə olaraq bu ilin avqustunda vətəndaşlar bankomatlardan 1,319 milyard manat çıxarıblar, bu da ötənilki göstəricilərdən 295 milyon manat çoxdur. Başqa sözlərlə, bank kartlarına gələn vəsaitin 69%-ni əhali nağdlaşdırır. "Mastercard"ın Azərbaycan üzrə meneceri Erdem Çakar isə bunu yolverilməz hal sayır: "Azərbaycanda hələ də bankomatdan pul çıxarıb marketdə ödəniş edənlər var. İnsanlar əvvəlcə marketlərin yanındakı bankomatların qarşısında, sonra isə içəridə - kassalarda növbə gözləyir. Bu isə əlavə vaxt itkisi deməkdir. Halbuki, ödənişləri birbaşa kartla etsələr, bankomatın qarşısında gözləməyə ehtiyac qalmaz. Onu da nəzərə almaq lazımdır ki, bəzən hansısa malın dəyəri, tutalım, 5 manat deyil, 4,73 manat edir və pulun qalığını almaq olmur. Nağdsız ödəniş etdikdə isə bu problem yaranmır". Amma yuxarıda səslənən rəqəmlərdən göründüyü kimi, nağdsız dövriyyənin həcminin istənilən tempdə artması istiqamətində problemlər var. Ekspertlər hesab edir ki, vəziyyətdən çıxış yolu üçün həm pos-terminalların sayının sürətlə artması, həm də mobil telefonun köməyilə ödənişlərin həcminin çoxalması vacibdir. Sonuncu dükanlarda alışı pos-terminalın deyil, mobil telefonun köməyilə qiymətləndirməyə imkan verməlidir. Təkcə ötən ilin sonlarında ölkədə 10, 339 milyon mobil telefon abonenti olması qeydə alınıb. Bu, ölkə əhalisinin sayından çoxdur. Bu mənada, nağdsız ödənişlər üçüq mobil telefonlardan istifadə də vacib sayılır.

"MasterCard"ın biznesin inkişafı üzrə direktoru Hakan Tatlıcı da bunu mümkün sayır və qeyd edir ki, nağdsız dövriyyə üçün əsas vasitə sayılan pos-terminalların əldə olunması və onlardan istifadə edilməsi sahibkarlar üçün əlavə xərcdir: "Pos-terminalları iş adamlarına havayı vermək isə banklar üçün sərfəli deyil. Odur ki, "Mastercard" olaraq vəziyyətdən alternativ çıxış yollarını araşdırdıq. Müəyyən etdik ki, "Android" əməliyyat sisteminə malik mobil cihazların arxasındakı təmassız ara hissə təmassız kartlarla ödəniş etmək üçün istifadə edilə bilər. Təbii ki, bu, NFC (Near-Field Communication - Yaxın Məsafəli Əlaqə) ilə mümkündür. Bu da pos-terminallara olan ehtiyacı aradan qaldırar". "MasterCard" rəsmisi dediyi sistemin necə işlədiyini də izah edib: "Vətəndaşın çalışdığı şirkət "Android" rejimində işləyən mobil əlavəsini telefona yükləyir, bankda qeydiyyatdan keçərək həmin mobil əlavəyə uyğun POS-ID alır. Bununla da, kartdan karta deyil, telefondan telefona ödəniş həyata keçirilir. Biz bu sistemi "Tap on Phone" adlandırmışıq. Hazırda Rusiyada "Sberbank", Türkiyədə "ENG Bank"la bu layihənin sınaqları həyata keçirilir. Türkiyədə təxminən 200 kiçik müəssisə bu sınaqlara qoşulub. Nəticələr uğurludur, amma ödənişin məbləği ilə bağlı limit var. Yəni müəyyən məbləği (Azərbaycanda 50 manatdır) keçən ödənişlər üçün şifrə daxil etmək lazımdır. Odur ki, pos-terminalsız yalnız həmin məbləğə qədər əməliyyat aparmaq mümkündür".

***Tahir TAĞIYEV***

# "Şahənşah" restoranının sahibini şantaj etməyə çalışan müştəri bəzi jurnalistləri də öz toruna sala bildi - mediadan jurnalistə etiraz...

**Bəzi saytlarda Bakıdakı "Şahənşah" restoranında kütləvi zəhərlənmə baş verdiyi haqqında məlumat yayılıb. İddialara görə, sözügedən restoranda keçirilən toy şənliyində iştirak edən qonaqlardan 50 nəfəri verilən qidalardan zəhərlənib. Məsələni araşdırmaq məqsədilə "Şahənşah" restoranı ilə əlaqə saxladıq. Restoranın inzibatçısı Zaur Abdullayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bəzi saytlar dəqiqləşməmiş informasiya yaymaqla restoranın nüfuzuna ciddi zərbə vurublar.**

Z.Abdullayevin sözlərinə görə, vətəndaş Elvin Məhəmmədovun iddiası əsasında bəzi saytlarda yer alan məlumat birmənalı olaraq həqiqəti əks etdirmir. Onun dediyinə görə, müştərinin bəzi media qurumlarının dəstəyilə restorana qarşı irəli sürdüyü əsassız ittihamlar, vədəndaş tərəfindən restoran rəhbərliyinin şantaj edilməsi birbaşa restoranın işgüzar imicinə zərbə vurur. "Toy 13 noyabr 2019-cu ildə keçirilib, özü də çox yaxşı toy oldu, biz onlara xeyli güzəşt də etdik. Toydan iki gün sonra, yəni noyabrın 15-də isə bəy mənim yanıma gəldi və bildirdi ki, toydan ziyanla çıxıb, anasının rəfiqələri toya gəlib, yeyib içiblər, amma pul yazdırmayıblar. O əvvəlcə dedi ki, mənə güzəşt edin, iki stolun pulunu qaytarın. Mən də dedim ki, üç stolunuz boş qalmışdı, biz də onun birini güzəşt etdik. Bu oğlan normal adama oxşamır, üzünə baxanda bilirsən ki, məqsədi düzgün deyil. O toyun şəkilləri də, videosu da var. O oğlan bizdən iki stolun pulunu tələb etdikdə biz onu verməkdən imtina etdik. Noyabrın 17-də, saat 15-16 radələrində mənə zəng vurdu və dedi ki, mənə pul verirsən, yoxsa vermirsən? Mən də yenə ona bildirdim ki, sənin iki stolunun boş qalmasının günahkarı restoran deyil, biz sənə pul vermirik. Onda o mənə dedi ki, toyda iştirak edən qonaqlar arasında kütləvi zəhərlənmə baş verib, qonaqlar zəhərlənib. Mən də ona dedim ki, toy ayın 13-ü olub, sən 4 gün sonra gəlib "kütləvi zəhərlənmədən" danışırsan. Əgər həqiqətən də zəhərlənmə baş vermişdisə, bu özünü yaxın 2-3 saat ərzində büruzə verərdi, 4 gündən sonra yox. Bu adam gəlib yalandan deyir ki, qonaqlar zəhərlənib. Elvin adlı müştəri restoranı şantaj edir və bizə qarşı əsassız ittihamlar irəli sürür. O mənə dedi ki, mənə təzminat ödəməsəniz, restoranı biabır edəcəyəm. Həmin adam gedib bəzi saytlara açıqlama verib. Həm o, həm də həmin saytlar bizim restoranın imicinə zərbə vurublar, onun haqqında həqiqətə uyğun olmayan fikirlər yayıblar. Biz həmin saytları da, bizi şantaj edən, bizdən əsassız olaraq maddi təzminat tələb edən müştərini də məhkəməyə verəcəyik. İnanın ki, bu həqiqətə uyğun olmayan informasiya yayıldıqdan sonra müştərilərimiz bizimlə əlaqə saxlayır, narahatlıqlarını bildirirlər. Mən də onlara bunun şantaj olduğunu, bizə şər-böhtan atıldığını deyirəm. Müştərilərin sualları qarşısında qalmışıq. Hamıya izahat veririk ki, bu bizə atılan şər-böhtandır. Bu insan və həmin media orqanları bizim restoranın illərdən bəri qazandığı nüfuza zərbə vurdular. Bəzi mətbuat orqanları dəqiqləşdirilməmiş məlumatlar yaymaqla nüfuz qazanmış restoranın imicinə xələl gətirmək niyyəti güdürlər.

Noyabrın 18-də restoranda yoxlama aparmaq üçün Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları gəldilər, biz onlara bütün videogörüntüləri, dəlilləri təqdim etdik. Eyni zamanda, bir neçə telekanaldan çəkiliş aparmaq üçün restorana gəldilər və bir neçə xəstəxanaya zəng vurub onlara kütləvi zəhərlənmə ilə bağlı müraciət edilib-edilmədiyini soruşdular, həmin xəstəxanalardan bildirdilər ki, onlara bu diaqnozla xəstələr daxil olmayıb. Telekanallar bizi şantaj edən oğlana zəng edirlər, o da "mən bu barədə danışmaq istəmirəm" deyir" söyləyən Z.Abdullayev bildirdi ki, restoran rəhbərliyi həm restoranın işgüzar nüfuzuna zərbə vuran müştərini, həm də yalan məlumatı yayan media qurumlarını məhkəməyə verəcək.

Jurnalsitlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli bizimlə söhbətində bildirdi ki, istər ənənəvi, istərsə də sosial medianın dəqiqləşdirilməmiş informasiya yayması jurnalistlərin peşə kodeksinə uyğun deyil. O qeyd etdi ki, hər bir media qurumunun vəzifəsi ictimaiyyəti narahat edən məsələləri araşdırıb işıqlandırmaqdır, araşdırılmamış məlumatların mediada yer alması müsbət hal deyil. "Jurnalist faktı araşdırmadan, dəqiqləşdirmədən, qarşı tərəfin mövqeyini öyrənmədən o məlumatı yaya bilməz. Faktı araşdırmaq, yayılan məlumatla bağlı qarşı tərəfin rəyini, mövqeyini öyrənmək vacibdir. Bu bizim medianın obyektivlik, qərəzsizlik göstəricisidir. Etik kodeksə görə, jurnalist qarşı tərəfin movqeyini olmadan məlumatı o halda yaya bilər ki, müxtəlif vasitələrlə qarşı tərəfə müraciət etsin, lakin heç bir cavab ala bilməsin, onda onu ictimailəşdirməkdə haqlıdır.

Amma təəssüf ki, bəzi media qurumları bu qaydalara riayət etmirlər. Əvvəllər ənənəvi media bütün qaydalara daha çox əməl edirdi, amma sosial media meydana çıxdıqdan, internetin sürətli inkişafından sonra bu məsələ qeyri-peşəkar KİV-də ikinci dərəcəyə keçib. Sosial media ilə bizim peşəkar KİV qurumunun fərqi ondan ibarətdir ki, sosial media qarşısına çıxan istənilən xəbəri yaya bilir, amma peşəkar media mütləq qarşı tərəfin mövqeyini də öyrənməli, məsələni dərindən araşdırmalı, faktları dəqiqləşdirməli, sonra o məlumatı yaymalıdır. Çox təəssüf ki, son zamanlar bizim bəzi media qurumları da özlərini peşəkar KİV qurumu kimi yox, sosial media, həvəskar xəbər istehsalçıları kimi aparırlar. Əllərinə keçən, eləcə də onlara təqdim edilən informasiyaları yayırlar, amma onun nə kimi fəsadlar törədəcəyinin fərqində olmurlar, qarşı tərəfin işgüzar nüfuzuna vurulan zərbəni nəzərə almırlar. Bu çox ciddi problemdir. Bəzi media qurumlarının şantaj məsələlərinə cəlb edilməsinin səbəbləri bir tərəfdən o media orqanlarında həmin yazıları yazanların qeyri-peşəkarlığıdırsa, digər tərəfdən də onların bəzilərinin müəyyən gəlir müqabilində o yazıları yazmasıdır. Bəzən bu halı yaradan səbəblərdən biri təəssüf ki, informasiyanı dəqiqləşdirmək imkanının olmamasıdır. Yəni qarşı tərəf bununla bağlı açıqlama vermək istəmir, faktları gizlədir. Bəzən ilkin mənbədən informasiya almaq problem olur. Bu, dünyanın hər yerində olur. İnformasiyanı dəqiqləşdirmək probleminin olması mediaya o əsası vermir ki, qarşısına çıxan hər məlumatı qarşı tərəfin rəyini öyrənmədən işıqlandırsın. Halbuki, o, bütün proseslərə əməl etməlidir".



***Zaur Abdullayev:*** *"Biz həmin saytları da, bizi şantaj edən, bizdən əsassız olaraq maddi təzminat tələb edən müştərini də məhkəməyə verəcəyik"*

***Müşfiq Ələsgərli:*** *"Çox zaman belə media orqanları rəqabət qruplarının təsir dairəsinə düşürlər"*

M.Ələsgərli təəssüflə qeyd etdi ki, bəzi media qurumları buna əməl etmirlər, onlar nəinki məlumatı dəqiqləşdirmir, heç ona cəhd göstərmirlər. "Buna isə səbəb əsasən qeyri-peşəkarlıq və məsələyə qərəzli yanaşmadır. Bəzi media orqanları iqtisadi qrupların kampaniyalarına qoşulur, onların maraq dairəsindən çıxış edirlər.

Bu da müəyyən maddi maraq qarşısında baş verir. Belə deyək, hər bir biznes qurumunun özünün iqtisadi rəqibi var. Çox zaman da belə media orqanları rəqabət qruplarının təsir dairəsinə düşür və bu qurumların xeyrinə olaraq qeyri-dəqiq, əsaslandırılmamış, təxribat, böhtan, şantaj xarakterli materiallar yayırlar. Bu, əlbəttə ki, yolverilməz haldır. Peşəkar media qurumları bu hala yol verməməlidirlər. Amma çox təəssüf ki, belə hallar var, özü də çox geniş yayılıb" - deyə M.Ələsgərli vurğuladı.

***İradə SARIYEVA***

**Artıq bir neçə ildir tıxaclar Bakıda əsas problemlərdən birinə çevrilib. Maraqlı fakt ondan ibarətdir ki, tıxaclar yalnız mərkəzdə və pik saatlarında deyil, şəhərin istənilən yerində, istənilən saatda yaranır. Bu barədə çox yazılıb, çox deyilsə də, problemin həlli yolunda qismən irəliləyiş müşahidə olunur.**

# Hadisə yerinə gecikən sığorta əməkdaşları - Bakıda tıxacları artıran əsas səbəblərdən biri...



Qəzaya düşən sürücülər hadisə yerinə yol polisi və sığorta şirkətinin əməkdaşlarının gəlməsini gözləyirlər. Odur ki, qəzadan sonra ucu-bucağı görünməyən tıxaclar yaranır. Təbii ki, bu haldan vətəndaşlar əziyyət çəkirlər.

Maraqlıdır, yolda nəqliyyatın hərəkətinə mane olan, insanların vaxtını alan bu cür hadisələri necə tənzimləmək olar ki, sürücülər uzun müddət sığorta şirkəti nümayəndəsini gözləmək məcburiyyətində qalmasınlar?

Məsələ ilə bağlı fikir bildirən sığorta sahəsi üzrə mütəxəssis Nicat Əlibəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, yol-nəqliyyat hadisəsi baş verən zaman olayla bağlı Dövlət Yol Polisinin əməkdaşına, eyni zamanda, sığorta komissarlığına mütləq xəbər verilməlidir: "Sığorta şirkətinin əməkdaşının qəza baş verdiyi ərazidə olması vacibdir. Sığorta nümayəndəsi müəyyən səbəblərdən hadisə yerinə gecikirsə, yenidən sığorta şirkəti ilə əlaqə saxlanaraq bildirilir ki, Dövlət Yol Polisinin əməkdaşları vəziyyəti nəzarətə alıb, qəza ilə bağlı şəkillər çəkilib. Bu məlumatlar sığorta şirkətinin nümayəndəsinə bildirildikdən sonra qəzaya uğrayan nəqliyyat vasitələri həmin ərazini tərk edə bilərlər".

Həmsöhbətimiz hesab edir ki, sığorta komissarlarının hadisə yerinə gec gəlmələrinin müxtəlif səbəbi ola bilər. Sığorta nümayəndələrinin digər hadisə yerində olması onların başqa bir ərazidə qeydə alınan qəza yerinə gec gəlmələrinə səbəb ola bilər.

Sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirdi ki, bu gün müxtəlif səbəblərdən şəhərdə

***Nicat Əlibəyli:** "Sığorta nümayəndəsi müəyyən səbəblərdən hadisə yerinə gecikirsə..."*

***İlqar Hüseynli:** "Qanun icazə verir ki, maşını, müəyyən qədər də olsa, yol kənarına çəksinlər və tıxaca səbəb olmasınlar"*

uzun-uzadı tıxac əmələ gəlir. Tıxacın yaranması səbəblərindən biri də avtoqəza zamanı sığorta şirkətinin nümayəndələrinin hadisə yerinə gec gəlməsidir. Bu hadisə ilə istənilən şəxs üzləşib və ya üzləşə bilər. Bunun da müəyyən səbəbləri var: "Sığorta şirkətləri bəzən ödəniş etməmək üçün o qədər bəhanə gətirirlər ki, sürücülər də bunun üçün maşını yerindən tərpətmədən sığortaçını gözləyirlər. "Yol hərəkəti haqqında" Qanun buna icazə verir ki, 1000 manata qədər dəymiş zərərə görə hadisə yerində dayanıb nə sığorta şirkətinin nümayəndəsini, nə də polis əməkdaşlarını gözləməyə ehtiyac yoxdur. Sürücülər öz aralarında razılığa gəlirlər. Bundan başqa, xüsusi texniki vasitələr var ki, avtomobilin şəklini çəkmək olur. Sürücülər özləri hadisə yerindən çəkiliş edib həmin görüntüləri yol polisinə göstərərək, kimin günahkar, kimin günahsız olduğunu müəyyənləşdirirlər. Yol polisi də buna uyğun olaraq protokol tərtib edir, həmin protokolla bərabər, "Forma 4" arayışı verilir.

Bu arayışın əsasında isə sığorta ödənişi edilir. Sadəcə, sığorta şirkətləri sürücüləri incidir, maşının yerindən tərpədilməsi ilə bağlı çoxlu bəhanə gətirirlər.

Təsəvvür edin, bəzən polisin protokolunu belə şübhə altına alırlar. Ona görə kiçik zərərdə belə, sürücülər saatlarla sığorta şirkətinin əməkdaşının gəlməsini gözləyirlər. Qanun icazə verir ki, maşını, müəyyən qədər də olsa, yol kənarına çəksinlər və tıxaca səbəb olmasınlar".

***Günel CƏLİLOVA***

---

**Xəbər verildiyi kimi, "Bakı Fond Birjası" QSC-nin (BFB) Listinq Komitəsinin qərarı ilə "PAŞA Bank" ASC-nin Türkiyədəki törəməsinin ("PAŞA Yatırım Bankası") 2 müxtəlif buraxılışlı istiqrazları əsas bazar seqmentində listinqə daxil edilib.**

# Satışda "Paşa yatırım" istiqrazları - Azərbaycan maliyyə bazarında yeni proses...




"Bakı Fond Birjası"nın yaydığı məlumatda qeyd olunur ki, noyabrın 18-də qiymətli kağızların təkrar bazarda ticarətinə başlanacaq. Söhbət hər birinin nominal dəyəri 1 000 ABŞ dolları olan 50 min ədəd faizli, təmin olunmamış istiqrazdan (50 milyon dollarlıq) gedir. Məlumat üçün bildirək ki, onların illik gəlirliliyi 2,95%-dir.

İstiqrazların 25 milyon dollarlıq hissəsi faizlərin aylıq ödənilməsi şərtilə 15 sentyabr 2021-ci ilə qədər, qalan 25 milyon dollarlıq hissəsi isə faizlərin rüblük ödənilməsi şərtilə 17 aprel 2022-ci ilə qədər tədavüldə olacaq. Prosesin anderrayteri "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC-dir.

***Pərviz Heydərov:** "Maliyyə bazarına "PAŞA Yatırım Bankası"nın istiqrazlarının daxil olması bu sahədə müsbət dəyişikliklərin baş verməsinə səbəb ola bilər"*

Xatırladaq ki, "PAŞA Yatırım Bankası"nın istiqrazları ilk dəfə 13 avqust 2018-ci ildə əsas bazar seqmentində listinqə daxil edilib.

"PAŞA Yatırım Bankası"nın istiqrazları Azərbaycan maliyyə bazarında nə kimi əhəmiyyətə malik olacaq? Bütün banklarda qeyd olunan istiqrazlar olarsa, bunun maliyyə sektoruna nə kimi təsiri olar?

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azər-

*"Qeyri-neft sektoru iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilərsə, bank sistemi..."*

baycan banklarının inkişaf səviyyəsi hazırda qaneedici deyil: "Hazırda ölkə iqtisadiyyatının inkişafı baxımından maliyyə bazarının mövcud vəziyyəti adekvat deyil. Bunun da səbəbi bazar iştirakçılarının payının az olmasıdır.

Ölkə iqtisadiyyatının əsas aparıcı qüvvəsi hələ ki, neft sektoru sayılır. Qeyri-neft sektoru lazımi səviyyədə inkişaf etmədiyi üçün, bank sektoru istənilən səviyyədə deyil.

Qeyri-neft sektoru iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilərsə, bank sistemi və digər sferalar da bazar iqtisadiyyatının inkişaf tempinə uyğun olaraq fəaliyyət göstərə bilərlər".

**P.Heydərov hesab edir ki, maliyyə bazarlarına daxil olan iştirakçıların sayının artması qeyd olunan sektorun inkişaf etməsinə səbəb ola bilər. Bu sferaya yeni nəfəsin daxil olmasına ehtiyac var. Maliyyə bazarına "PAŞA Yatırım Bankası"nın istiqrazlarının daxil olması bu sahədə müsbət dəyişikliklərin baş verməsinə səbəb ola bilər.**

***Günel CƏLİLOVA***



# Kişi müəllimlərin azalmasından sonra kişi həkimlərin də say azalması başlayıb...

## *Rasif Bağırov: "Kişi həkimlərin sayı azalmır, sadəcə, qadın həkimlərin sayı artır ki, bu da maraq və həvəslə bağlıdır"*

**Açıqlanan statistik rəqəmlərə əsasən, kişi həkimlərin sayı azalıb. Belə ki, 2010-cu ildə bütün həkimlərin 63,2 faizi qadın olduğu halda, 2018-ci ildə bu göstərici 66,4 faizə yüksəlib.**

Ümumiyyətlə, son 8 ildə Azərbaycanda qadın həkimlərin sayı artıb, kişi həkimlərin sayı isə azalıb.

Qeyd edək ki, müəllimlik ixtisasında da qadınların sayı üstünlük təşkil edir. Pedaqoq kişilərin sayı qadınlara nisbətən azalıb. Tibb sahəsində analoji halın qeydə alınması sual doğurur.

Kişi təbiblərin sayının nə səbəbdən azaldığını öyrənmək üçün mütəxəssislərə müraciət etdik. Həkim-ekspert Rasif Bağırov qeyd etdi ki, kişi həkimlərin sayı qadınlara nisbətən hər zaman az olub: "Tibb Universitetində təhsil alanların əksəriyyəti xanımlardır. Bunun da səbəbi qızların tibb sahəsinə daha çox maraq göstərməsidir. Yəni kişi həkimlərin sayı azalmır, sadəcə, qadın həkimlərin sayı artır ki, bu da maraq və həvəslə bağlıdır".

Həmsöhbətimiz onu da əlavə etdi ki, tibb sahəsinin elə ixtisasları var ki, orada kişilər üstünlük təşkil edir, bəzi istiqamətlərdə isə xanımlar: "Tibb bacısı, qadın həkimi, pediatr sahələrində çalışmağa qadınlar maraq göstərirlər. Nevropatoloq, travmatoloq və digər sahələrdə isə kişi təbiblər çalışmağa üstünlük verirlər. Onu da deyim ki, ginekologiya sahəsinə xanımlarla yanaşı, bəylər də maraq göstərirlər".

Ekspertin fikrincə, **kişi təbiblərin sayının az olması həm də ailələrin qız övladlarını gələcəkdə həkimlik peşəsinə yönləndirməsi ilə bağlıdır: "Əksər ailə qızlarının həkim, oğlanlarının isə hüquqşünas, iqtisadçı olmasını istəyir. Bu düşüncə qızların tibbə maraq göstərməsinə səbəb olur".**

***Günel CƏLİLOVA***

**Xəbər verildiyi kimi, gələn ildən Azərbaycanda tikinti şirkətlərinin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ ləğv ediləcək. Bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə deyib.**



# Tikinti şirkətlərinin külli məbləğdə vergidən yayınmasının sonu çatdı - çoxillik fırıldağa son qoyulur...

## *Nüsrət İbrahimli: "Tikinti şirkətləri üçün sadələşdirilmiş verginin ləğvi evlərin bahalaşmasına səbəb ola bilməz"*

O bildirib ki, gələn ildən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər (özünə məxsus və ya cəlb edilən vəsait hesabına əhalinin fərdi (şəxsi) ehtiyaclarını ödəmək və ya kommersiya məqsədləri üçün öz gücü ilə və ya müvafiq ixtisaslı peşəkar sifarişçi və ya podratçı cəlb etməklə bina tikdirən, habelə bu tikintinin və ya başa çatmış obyektin mülkiyyətçisi olan hüquqi və ya fiziki şəxslər) sadələşdirilmiş vergi ödəyicisi ola bilməyəcək. Komitə sədri bildirib ki, həmin şəxslər vahid vergi rejimində (əlavə dəyər vergisi (ƏDV) və mənfəət vergisi metodu) fəaliyyət göstərəcəklər: "Eyni zamanda, gələn ildən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövlətə ayrılan hissə təqdim edildikdə, əmlaka görə əldə edilən gəlirlər vergiyə cəlb olunan gəlirlər hesab edilməyəcək. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən tikilən binanın yaşayış sahəsinin dövlətə ayrılan hissəsinin təqdim edilməsi ƏDV-dən azad ediləcək.

Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı gəlir və bu gəlirdən çıxılan xərclər vergi ili ərzində alqı-satqı müqavilələri üzrə nəzərdə tutulan ƏDV-siz məbləğlər və təqdim edilən həmin sahələrin tikintisinə çəkilən məsrəflər əsasında müəyyən ediləcək".

*"Tikinti şirkətləri vahid vergi rejimində fəaliyyət göstərdikdən sonra məcbur olacaqlar ki..."*

Maraqlıdır, tikinti şirkətləri ilə bağlı tətbiq olunan yeni qayda evlərin satış qiymətinə təsir edəcəkmi? Daşınmaz əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimli qeyd etdi ki, tikinti şirkətlərində mühasibatlıq dəqiq qurulmamışdı və bir nəfər oturub, sadəcə olaraq ümumi rəqəmləri hesablayır, dəqiqləşdirilmiş hesabat aparmırdı. Digər səbəb isə tikinti şirkətlərinin tikinti xərci ilə satış qiyməti arasındakı fərqin çox böyük olması idi. Buna görə də onlara sadələşdirilmiş vergi ödəyicisi olmaq sərf edirdi. N.İbrahimov hesab edir ki, tikinti şirkətləri üçün sadələşdirilmiş verginin ləğvi evlərin bahalaşmasına səbəb ola bilməz: **"Tikinti şirkətləri vahid vergi rejimində fəaliyyət göstərdikdən sonra məcbur olacaqlar ki, bütün xərclər göstərilsin və rəsmi sənədləşdirmə işləri baş tutsun. Bundan sonra evlərin satış qiyməti ilə xərcləri arasındakı marja (fərq) kiçiləcək. Real uçot nəticəsində Əlavə Dəyər Vergisi tikinti şirkətləri üçün daha sərfəlidir. Onların özləri də şahid olacaq ki, uçotlar düzgün aparılsa, sadələşdirilmiş vergidən belə az vəsait ödəyəcəklər".**

***Günel CƏLİLOVA***




# "Qala" taekvondo klubunun 14 illiyinə həsr edilən klublararası yoldaşlıq görüşü keçirilib

**Noyabrın 17-də "Qala" taekvondo klubunun yaranmasının 14-cü ildönümü münasibətilə taekvondo klubları idmançıları arasında yoldaşlıq görüşü keçirilib.**

"Qala"nın yaradılmasına həsr edilən turnirdə Tovuz, Masallı, "Gömrükçü", Sumqayıt və "Qala" taekvondo klublarının uşaq və yeniyetmə idmançıları tatami üzərinə çıxıblar. Yoldaşlıq görüşündə "Qala" klubunun idmançıları 8 qızıl, 10 gümüş, 6 bürünc medal qazanıblar.

İdmançıların məşqçiləri "Qala" taekvondo klubunun rəhbəri, Əməkdar məşqçi Ramil Həsənov və tanınmış idman ustası Fatma Əliyevadır.

***İradə SARIYEVA***

№ 205 (4103) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

19 NOYABR 2019-cu il

# 14 min il əvvəl hazırlanmış mamont tələsi aşkar edilib

**Meksika arxeoloqları mamontlar üçün hazırlanmış 14 min illik tələ aşkar edib. 2019-cu ildə, Mexiko yaxınlığında açkar edilmiş mamont məzarlığının, qədim dövrlərdə tələ məkanı olması məlum olmuşdur.**

Bu haqda Luis Kordoba "Universal" dərgisinə müsahibəsi zamanı bildirmişdir. "Deyerler.org" bildirir ki, söhbət 14 min il bundan öncə mamontlar üçün hazırlanmış tələdən gedir. Kordobanın sözlərinə görə, bu növ artefaktlar hələ dünyanın heç bir yerində tapılmamışdır. Arxeoloqların sözlərinə görə, tapıntı ərazisinin yaxın ətrafında buna oxşar daha üç tələnin aşkar edilməsi mümkündür. Kordoba bildirir ki, tapılmış artefaktlar Tultepek mamont muzeyində sərgilənəcək.



## Xərçəngə qarşı dərman hazırlandı

ABŞ və Avstraliyadan olan bir qrup alim xərçəngə qarşı dərman hazırladıqlarını elan edib. Məlumatlara görə, "AMG 510" adı verilən dərmanın şişləri azaltdığı, onların inkişafına mane olduğu və parçalayaraq yox etdiyi bildirilir. Bu dərmanı alimlər ilk olaraq siçanlar üzərində test ediblər və müsbət cavab alıblar. Bundan sonra ağciyər xəstəsi olan dörd insan da bu təcrübəyə cəlb edilib. Altı həftəlik müalicədən sonra onların ikisində şişlər əhəmiyyətli dərəcədə azalıb, dərmanın metastazın yayılmasının qarşısını aldığı müəyyən olunub. Dərman xəstələrin birində şişi 34, digərin 67 faiz azaldıb, heyvanlarda isə bəzi hallarda tamamilə aradan qaldırılıb. Siçanların hətta immunitet sisteminin daha da gücləndiyi məlum olub.



# Bu şəhərdə dəmir yolu stansiyası üç günə tikilib...

**Amsterdamda inşaatçılar üç gün ərzində yeni "Amstardam Zuid" stansiyasını inşa edə biliblər.**

"Trend" bildirir ki, bu nəticə gecə-gündüz yorulmadan işləmək sayəsində əldə edilib. Bütün proses video qeydə alınıb və üç gün çəkib: əvvəlcə inşaatçılar köhnə asfalt səthini qaldırıb sonra dəmir yolu xətlərini söküblər. Bu müddət ərzində yeraltı tunel inşa edilib. Gecələr işlər güclü projektorların köməyi ilə aparılıb. Yeni bir stansiyanın inşası barədə qərar çoxdan qəbul edilib, lakin şəhər rəhbərliyi qatarların və avtomobillərin hərəkətini iflic etməmək üçün bunun necə həyata keçiriləcəyini bilməyib.

**Buna görə, üç gün ərzində yolların bağlanmasına və bu müddət ərzində yeni bir stansiyanın tikilməsinə qərar verilib.**



## Elan

Bakı şəhəri, Nizami rayonu, Naxçıvanski küçəsi, ev 57, mənzil 17-yə, Yuşvayeva Batiil Yaanayevnaya verilmiş 4 otaqlı mənzilin Dövlət Reyestrindən çıxarış və texniki pasportu itdiyindən etibarsız sayılır.

Şəki rayonu, Turan qəsəbə sakini Aslanov Davud Mustafa oğlunun və ailə üzvlərinin adına verilmiş JN:128 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şirinov Etibar Vaqif oğlunun adına, Bakı şəhəri, Xətai rayonu, General Şıxlinski küçəsi, bina 30, mənzil 80 ünvanının seriya MH 0072645 nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır.

Bakı Dövlət Universitetinin II kurs tələbəsi İsrailov Səddam Füzuli oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır (AZE № 161 451 80).

Xəlilzadə Sönməz Bayram oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Cari, rutin işlərə istəmədən çox vaxt sərf edirsiniz. Ancaq yalnız bunları bitirəndən sonra əsas məsələlərə keçmək olar. İşdə eksperimentlər aparmaq məsləhət deyil, yaxşı olar ki, yoxlanılmış metodlardan istifadə edəsiniz.



**Buğa** - O qədər də çox şey vəd etməsə də, pis gün deyil. Dediyiniz hər sözü ağzınızdan "bişirib" çıxarın: sizi çox diqqətlə dinləyirlər, özü də bunların hamısı sizi çox istədiklərindən belə etmir.



**Əkizlər** - İşdə uğurlar qazana bilərsiniz, yeni, mürəkkəb məsələlərin öhdəsindən asanlıqla gəlirsiniz. Ailəli əkizlər həyat yoldaşları ilə münasibətlərini möhkəmlədə, mübahisələrə son qoya bilərlər.



**Xərçəng** - Əvvəlcədən təyin etdiyiniz məqsədlərinizə doğru gedin, yolunuzdan sapdırmağa çalışanlara isə imkan verməyin. Sizi şımıkləndirmək istəyənlər çox olacaq, amma özünüzdə güc tapıb bunlara etiraz edə bilərsiniz.



**Şir** - Yeni tanışlar tapmaq, faydalı əlaqələr qurmaq zamanıdır. Bu gün "ixtira maşınınız" əla işləyir, odur ki, həm özünüzün, həm başqalarının problemlərinin orijinal həll yollarını tapırsınız.



**Qız** - Boyunuzdan yuxarı tullanmağa çalışmayın: qarşınıza elə məqsədlər qoyun ki, onları həll edə biləsiniz. Məhz ehtiyat və diqqət bir çox səhvlərdən və düşünülməmiş hərəkətlərdən sizi qoruyar.



**Tərəzi** - Eksperiment aparmayın, yoxlanmamış metodlardan istifadə etməyin. Sağlam mühafizəkarlıq, ehtiyat, ənənələrə sadiqlik uğurunuz üçün şərait yaradacaq. Başqalarını hövsələdən çıxaran çətin məqamlarda siz təmkininizi qoruyursunuz.



**Əqrəb** - İdeyalarınızın reallaşdırılması üçün dəstəyə ehtiyacınız olduğunu anlayırsınız, ancaq onu, təəssüf ki, lazım olmayan yerdə arayırsınız. Təmaslarda ehtiyatlı olmağınız vacibdir: ləyaqətsiz birinə inanaraq ciddi səhv edə bilərsiniz.



**Oxatan** - İşgüzar təmaslar üçün uğurlu gündür. Bu gün əvvəllər sizə qarşı olan insanların rəğbətini qazana bilərsiniz. İntuisiyanız çox güclüdür, onun sayəsində işbirliyində olduğunuz adamların əsl maraq və məqsədlərini anlayırsınız.



**Oğlaq** - Nə baş verirsə-versin, təmkininizi qorumağa çalışın. Düzdür, şərait siz istəyən kimi deyil, amma istənilən situasiyadan çıxış yolu, özü də ən uğurlusunu, tapa biləcəksiniz. Sizə yaxşı tanımadığınız insanlar dəstək olacaqlar.



**Dolça** - Cəsarətli plan və orijinal ideyalarınız var? Əgər varsa, sevinin: onların reallaşdırılması üçün əla vaxt gəlib yetişdi. Nə qədər qətiyyətli olsanız, uğur qazanmağınız bir o qədər realdır.



**Balıqlar** - Xeyli gözlənilməzlik yaşayacaq, hərdən yaranmış situasiyadan necə baş tapmağı bilməyəcəksiniz. Sizə məsləhət verən çoxdur, amma yaxşı olar ki, öz intuisiyanıza qulaq asasınız.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

# Yaponiyada bitki mənşəli avtomobil hazırlanıb

**Yaponiya Ətraf Mühit Nazirliyi bitki mənşəli materiallardan sürətli avtomobil hazırlayıb. Bu barədə "Motor1" portalı xəbər verir.**

Yeni material beş dəfə daha rahat və poladdan beş dəfə daha möhkəmdir. Qeyd edək ki, bu yenilik ətraf mühitin tullantılardan təmizlənməsi uğrunda gözlənilməz tərəfdən atılan addımlardan biridir. O, az yanacaq sərf edir. Bundan başqa, nanosellüloz lifin geniş tətbiq olunması ənənəvi maşınların istehsalı zamanı atmosferə düşən karbonun həcmini əsaslı şəkildə azaldır.



*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.